

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bərpaolunmayan enerji mənbələrini necə qorumalı?



5

## "COP29-da 60 mindən çox adamın iştirak edəcəyi proqnozlaşdırılır"

13




SƏS

№ 068 (6993)

20 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

# Prezidentin və Azərbaycanın növbəti qələbəsi!



Qazax rayonunun işğal altındakı 7 kəndindən 4-ü geri qaytarılır

3

## Azərbaycan: kəsişən dəhlizlər



4

## Kənd turizminin istifadə edilməyən potensialı



9

## Mitinq baş tutmadı, Əli Kərimli ilə xaricdəki antimilli ünsürlər arasında qarşıdurma başladı



9

## Uşaqlara hansı yaşda telefona icazə verilə bilər?



16

## Qadınlığa hörmət et, QADIN!



13

# Dünya standartlarına uyğunlaşdırılmış tibb müəssisələri

***Səhiyyə sistemində aparılan uğurlu islahatlar nəticəsində tibb müəssisələrinin maddi-texniki bazası və kadr potensialı gücləndirilib, bütövlükdə səhiyyə sahəsində nailiyyətlər əldə edilib. Müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi avadanlıqla təmin edilib.***



*Prezident İlham Əliyev: "Azərbaycanda bir dənə də şəhər, rayon olmayacaq ki, orada ən müasir standartlara cavab verən tibb mərkəzi olmasın"*

Bu gün Azərbaycanda səhiyyənin inkişafı istər yeni tibb ocaqlarının inşasında, istər mövcud xəstəxana və tibb mərkəzlərinin bərpasında, istərsə də tibb müəssisələrinin ən müasir avadanlıqla təchiz edilməsində özünü daha qabarıq büruzə verir. Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri Azərbaycan Prezidenti İlham Əliyev daim nəzarətdə saxlayır.

Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 700-ə yaxın səhiyyə müəssisəsinin əhalinin istifadəsinə verilməsi insan sağlamlığına ayrılan diqqətin bariz nümunəsidir. Bu gün ölkəmizdə "Talassemiya" Mərkəzi, Milli Onkologiya Mərkəzinin Uşaq Klinikası, Respublika Uroloji Klinik Xəstəxanası, ən son texnologiyalarla təchiz olunmuş diaqnostika mərkəzləri və s. əhaliyə lazımi xidmət edir. Hər növ müasir tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş xəstəxanalar dünya standartlarına uyğunlaşdırılıb. Yeni istifadəyə verilən, təmir və bərpa olunan səhiyyə ocaqlarına dünyanın inkişaf etmiş ölkələri olan Almaniya və İsveçrə kimi ölkələrdən avadanlıqlar gətirilir.




### QƏBƏLƏ RAYON MƏRKƏZİ XƏSTƏXANASI - REGİON ƏHALİSİNƏ HƏRTƏRƏFLİ TİBBİ XİDMƏT

Bu günlərdə. aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 160 çarpayılıq Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışını edib. Binanın inşasına 2016-cı ildə başlanılıb və tikinti işləri 2023-cü ildə başa çatdırılıb. Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 4,9 hektardır. Tibb ocağının altımərtəbəli əsas binası üç blokdan ibarətdir. Bu səhiyyə müəssisəsində terapiya, uşaq xəstəlikləri, nevrologiya, ümumi cərrahiyyə, ginekologiya, travmatologiya, LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, qəbul, laboratoriya, təcili tibbi yardım, doğum, doğuşdan sonrakı fizioloji şöbələr və hamiləliyin patologiyası şöbəsi də fəaliyyət göstərəcək.



Xəstəxana müasir tələblərə cavab verən tibbi avadanlıqla, o cümlədən maqnit rezonans tomoqrafiyası (MRT), çoxkəsikli kompüter tomoqrafiyası (KT), rəqəmsal stasionar ultrasəs müayinə cihazı, rəqəmsal teleskopik rentgen cihazı və rəqəmsal DR rentgen qurğusu ilə təchiz olunub. Ərazidə əsas korpusla yanaşı, Gigiyena və Epidemiologiya Mərkəzi, Yoluxucu Xəstəliklər Korpusu, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbəsi üçün binalar tikilib.

Xəstəxananın həyətində geniş yaşıllıq zolağı salınıb.

### "SON İLLƏR ƏRZİNDƏ TƏMİR EDİLMİŞ, YAXUD DA Kİ, YENİ TİKİLMİŞ MƏRKƏZLƏR BÜTÜN CƏHƏTLƏRDƏN ƏN YÜKSƏK SƏVİYYƏDƏDİR"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Azərbaycanda bir dənə də şəhər, rayon olmayacaq ki, orada ən müasir standartlara cavab verən tibb mərkəzi olmasın". Bu, onun göstəricisidir ki, Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsinə uyğunlaşdırılır. Dövlət başçısı "biz artıq Azərbaycan standartlarından da danışa bilərik" deməklə, Azərbaycan səhiyyəsindəki gerçəkliklərə əsaslanır: "İndi dünya səviyyəsində müxtəlif elmi mərkəzlər var və bizim mərkəzlər - son illər ərzində təmir edilmiş, yaxud da ki, yeni tikilmiş mərkəzlər bütün cəhətlərdən ən yüksək səviyyədədir: həm keyfiyyət, həm rahatlıq, palataların ölçüləri, xəstələrə, həkimlərə yaradılmış şərait və əlbəttə ki, avadanlıq."

Bu layihələr, eyni zamanda, vətəndaşlarımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir. Prezident İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "İnsanların sağlamlığı ən vacib məsələdir. Bu gün statistikaya, Dünya Səhiyyə Təşkilatının hesablamalarında Azərbaycanın artan reytinqinə baxdıqda görürük ki, bu sahədə çox yaxşı nəticələr var".

### "İNSAN SAĞLAMLIĞI SOSİAL MƏSƏLƏLƏR ARASINDA ƏN BİRİNCİ YERDƏDİR VƏ BU GÜN AZƏRBAYCANDA BU SAHƏDƏ GÖZƏL NƏTİCƏLƏR VAR"

Azərbaycanda həyata keçirilən sosial siyasət nəticəsində müşahidə olunan uğurlu inkişaf həyatımızın hər bir sahəsini əhatə etdiyi kimi, bu inkişaf əhalinin sağlamlığının qorunması kimi vacib bir sahədən də yan keçməyib. Səhiyyəyə diqqət və qayğının artırılması Azərbaycanın səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirməkdədir. Ölkədə səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş 10-dan artıq dövlət proqramının uğurlu icrasına nail olunub və bu davam etməkdədir. "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərə qarşı mübarizəyə dair 2015-2020-ci illər üzrə Strategiya"sı "2016-2020-ci illər üçün şəkərli diabet üzrə Dövlət Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" və s. insan həyatı və sağlamlığına zərbə vura biləcək halların qarşısının alınmasında əhəmiyyət kəsb edib. Bütün bunlar Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşamasının, ölkəmizin iqtisadi gücünün, siyasi sabitliyinin təzahürüdür.



Azərbaycan Prezidenti İlham Əliyevin qayğısı və diqqətinin məntiqi nəticəsi olaraq iqtisadiyyatın inkişafı səhiyyədə də görülən işlərin daha böyük vüsətlə davam etdirilməsinə imkan yaratmışdır. Ölkənin maliyyə imkanlarının çoxalması və həyata keçirilən siyasi kurs dövlət büdcəsindən səhiyyəyə ayrılan maliyyə vəsaitinin artmasına imkan verir və Azərbaycan səhiyyəsində bir sıra işlərin keyfiyyətlə həyata keçirilməsinə şərait yaradır. Bütün bunlar gələcəyin təminatı olan insan faktorunun daim diqqətdə olduğunu, onların fiziki cəhətdən sağlam və gümrahlığının diqqətdə saxlanıldığını göstərir. "İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin fərman və sərəncamları ilə Azərbaycan səhiyyəsi müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Prezidentin və Azərbaycanın növbəti qələbəsi!



***Nəhayət, gözlənilən hadisə baş verdi. Qazax rayonunun işğal altındakı 7 kəndindən 4-ü geri qaytarılır. Düzdür, bu hadisə gec-tez baş verməli idi, amma Azərbaycan bunun qansız-qadasız ötüşməsini istəyirdi. Müharibə etmək niyyəti olsaydı, yəqin ki, Azərbaycanı durduran olmazdı, öz suverenliyini, ərazi bütövlüyünü bərpa etməkdə yenə tərəddüd etməzdi. İtkilər olmasın deyə, rəsmi Bakı İrəvandan kostruktivlik nümayiş etdirməyi, bizə aid olan torpaqları qeyd-şərtsiz qaytarmağı tələb edirdi.***

## *Qazax rayonunun işğal altındakı 7 kəndindən 4-ü geri qaytarılır*






Ermənistan tərəfi 44 günlük müharibədən keçən 3 il yarım müddət ərzində Azərbaycandan delimitasi prosesi ilə bağlı təkliflər alsa da, revanşistlərin və daha çox xarici qüvvələrin təhriki ilə İrəvan reallıqla barışmaq istəmirdi. Ermənistanın baş naziri Nikol Paşinyan isə qeyri-müəyyən, anlaşılmaz fikirləri ilə ölkəsini bir az daha dolaşığa salır, işğalçı əməllərini davam etdirməklə beynəlxalq qurumların, o cümlədən sülh təşəbbüskarlarının işini çətinləşdirirdi. Amma yolun sonu gəldi, Ermənistan rəhbərliyi Azərbaycanın "B" variantını işə salacağından çəkinərək prosesin sülh yolu ilə həll olunmasına üstünlük verdi.

2024-cü il aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirilib.

Görüş zamanı komissiyalar delimitasiya prosesinin ilkin mərhələsində Tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanıs Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) – Xeyrımlı (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırıblar. Həmçinin qərara alınıb ki, sərhəd xəttinin bu hissələrinin təsviri koordinatları yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirilməsi nəzərə alınmaqla tərtib edilsin və bu, Azərbaycan və Ermənistan arasında 15 may 2024-cü il müddətinədək müvafiq Protokol-təsvirlə sənədləşdiriləreək razılaşdırılmalı və imzalanmalıdır.

Razılaşdırılıb ki, tərəflər sərhəd xəttinin razılaşdırılmış hissələrində öz sərhəd xidmətlərinin eyni vaxtda və paralel yerləşdirilməsi üçün tədbirlər görmək məqsədilə öz hökumətlərinə müraciət edəcəklər. Həmçinin razılaşdırılıb ki, delimitasiya prosesi tam başa çatana qədər Protokol-təsvirdə göstərilən sərhəd xəttinin hissələri delimitasiya edilmiş hesab olunsun. Paralel olaraq, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın Birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin 1 iyul 2024-cü il müddətinədək başa çatdırılması və dövlətdaxili razılaşdırmalar prosesinə və müvafiq qaydada Tərəflərin dövlətlərinin qanunvericiliyinin tələblərinə uyğun olaraq Əsasnamənin təsdiqinə başlamaq barədə razılığa gəlinib.

Razılaşmada qeyd olunub ki, onlar delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Tərəflər, həmçinin həmin baza prinsipini Əsasnamə layihəsində təsbit etmək barədə razılığa gəliblər. Əgər gələcəkdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişdə başqa cür qərara gəlinərsə, o zaman Əsasnamənin müvafiq bəndi bu Sazişlə müəyyənləşdirilmiş prinsiplərə uyğunlaşdırılacaq.

Tərəflər Əsasnaməni təsdiq etdikdən sonra növbəliliyi razılaşdırmaq və sərhədin bütün digər hissələrinin, o cümlədən anklav və eksklav məsələləri üzrə delimitasiya prosesini davam etdirmək barədə razılığa gəliblər. Görüşün nəticəsində protokol imzalanıb. Növbəti görüşün keçirilməsi tarixinin və yerinin işçi qaydada razılaşdırılması qərara alınıb.

Tərəflər arasında baş tutan razılaşma barədə danışarkən kənar qüvvələrin bu məsələyə verdikləri, yaxud verəcəkləri reaksiya daha maraqlıdır. Çünki, iki ölkə arasında münaqişənin həllində olduğu kimi, müharibənin gedişində də beynəlxalq güclər yalnız qeyri-konstruktivlikləri ilə yadda qalıblar. 30 illik savaşda bu qüvvələr müxtəlif adlar altında iki qonşu ölkə arasında sülhü təmin etmək, ədaləti bərpa etmək əvəzinə dağıdıcılıqla məşğul olublar, düşmənçilik toxumu səpiblər, ermənilərə hərtərəfli yardım etmə qarçıdurmanı passiv fazadan çıxararaq onu böyük savaşa çevirə biliblər. Burada həmin güclər daha çox öz maraqlarından çıxış edərək müharibənin uzanmasına səbəb olublar. Bu gün isə Azərbaycan və Ermənistan üçüncü tərəfin iştirakı olmadan masaya əyləşiblər və razılığa gəliblər. Halbuki, Azərbaycan hər zaman Ermənistanla birbaşa danışıqların tərəfdarı idi. Düşənbə görüşündən başlanan birbaşa danışıqların bəhrəsi bu gün özünü daha geniş mənada təsdiq edir. Bəzi ölkələr və beynəlxalq təşkilatlar ikitərəfli danışıqların bəhrə verməyəcəyi barədə təbliğat apararaq buna özlərini də inandırmışdılar. Amma Azərbaycan Prezidenti İlham Əliyev bu səddi də dağıtmağı bacardı.

Bəzi Qərb dairələrinin danışıqlar prosesinə müdaxiləsinin qarşısını alındıqca, Ermənistan və Azərbaycan qarşılıqlı anlaşma mühiti formalaşdı və nəticə də bundan ibarətdir ki, Qazax rayonunun 7 kəndindən 4-ü qansız, qadasız geri alındı. Bu, əlbəttə, Azərbaycanın, önun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və onun ətrafında yumruq tək birləşən Azərbaycan xalqının uğurudur, növbəti QƏLƏBƏSİDİR.

***V.VƏLİYEV***






# Azərbaycan: kəsişən dəhlizlər

## ABŞ və Rusiya beynəlxalq nəqliyyat axınlarını təşkil etmək üçün şans axtarırlar

*“Nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı çox ciddi işlər aparılmışdır. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallaşır. Çindən, Orta Asiyadan Azərbaycana, Azərbaycandan Gürcüstan, Türkiyə vasitəsilə Avropaya uzanan yeni İpək yolu layihəsi reallaşır və burada Azərbaycanın rolu kifayət qədər önəmlidir. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması üçün Azərbaycan konkret addımlar atır. Əminəm ki, bu layihə də uğurla reallaşacaq və beləliklə, bundan sonra - bu iki mühüm layihə reallaşandan sonra Azərbaycan dünya miqyasında əvəzolunmaz tranzit ölkəsinə çevriləcəkdir.”*

*İlham ƏLİYEV*

Azərbaycanın yerləşdiyi coğrafiya bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq dövlətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu bir məkan olub. İndiki zamanda ölkələr arasında əlaqələrdə yeni çağırışlar, keyfiyyət dəyişiklikləri baş versə də, dəhlizlərin əhəmiyyəti öz aktuallığını hələ də qoruyub saxlayır. Qloballaşan dünyada ölkəmizin rolu hər gün artır, strateji əhəmiyyət kəsb edir.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir. Bu həm də ölkəmizin geostrateji mövqeyə malik olduğundan xəbər verir. Bu potensialı böyük uzaqgörənliklə qiymətləndirən ümummilli lider Heydər Əliyev 1998-ci ildə 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndəsinin iştirakı ilə tarixi İpək yolunun bərpasına həsr olunmuş konfransın məhz Bakıda təşkil olunmasına və həmin tədbirdə Əsas Çoxtərəfli Sazişin imzalanmasına nail oldu. İpək yolunun bərpasına həsr olunan Beynəlxalq Bakı konfransı başa çatdıqdan 2 gün sonra ulu öndər Heydər Əliyev müşavirə keçirdi. Həmin müşavirədə XXI əsrdə Avrasiya nəqliyyat dəhlizinin əhəmiyyətinin daha da artacağını nəzərə alaraq respublikamızda bu sahədə ciddi hazırlıq tədbirlərinin həyata keçirilməsinin, yeni nəqliyyat vasitələri alınmasının və müasir xidmət sahələrinin yaradılmasının vacibliyi qeyd edildi. Bunun da sonrakı illərdə Avrasiya nəqliyyat dəhlizinin, Transqafqaz dəhlizinin intensiv fəaliyyətinin Azərbaycanın sosial-iqtisadi həyatında böyük əhəmiyyəti oldu. Bu, özünü yeni iş yerləri açılmasında, Azərbaycanın iqtisadi təhlükəsizlik məsələlərinin həll edilməsində, Bakının bu magistral xəttin mərkəzində və Xəzər sahilində yerləşən ən iri liman kimi inkişafında göstərdi.

Şimal-Cənub nəqliyyat dəhlizi ideyası da Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi istiqamətində tədbirlərin uğurla nəticələnməsi alternativ layihələrin də inkişafına səbəb oldu. Azərbaycan bu layihədə də fəal iştirak edərək onu milli maraqların təmin edilməsi və ölkədə digər nəqliyyat növlərinin inkişafı baxımından əlverişli hesab etdi. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi haqqında razılaşma 2000-ci ildə Rusiyada əldə olunub. Bu nəqliyyat dəhlizi Azərbaycanın əlverişli tranzit imkanlarından geniş istifadəni zəruri edir. Beynəlxalq miqyasda yükdaşımalar sahəsində ciddi rəqabətin olduğu bir zamanda böyük tranzit potensialına malik olan Azərbaycan müşahidəçi mövqeyində dayana bilməz. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri ölkəmizin aparıcı tranzit mərkəzinə çevrilməsini tam təmin etməkdir.

Dünyada artan nəqliyyat riskləri bütün region ölkələri, o cümlədən Azərbaycan üçün yeni tranzit imkanları açıb. Son vaxtlar beynəlxalq yüklərin Qırmızı dəniz və Süveyş kanalında təhlükələrlə üzləşməsi Azərbaycanın əsas ölkə olaraq çıxış etdiyi Orta Dəhlizin əhəmiyyətini artırıb. Bloomberg qeyd edir ki, bu layihələr Qərbin sanksiyalar müharibəsi vasitəsilə təcrid etmək istədiyi Rusiyadan fərqli olaraq Azərbaycanı əksər beynəlxalq ticarətin mərkəzinə çevirə bilər. Ölkəmizin ərazisindən keçən yeni tranzit marşrutlarının rəqabət qabiliyyətinin artırılmasında ciddi işlərin görüldüyü barədə fikirlər hələ də gündəmdədir. Azərbaycanın Çin-Avropa istiqamətində daşımalarda öz tranzit potensialından istifadə etməkdə artıq tam uğurlu təcrübəsi var. Ekspertlər rəqabətin artacağı barədə proqnozlar verirlər.



Yaxın Şərqdə uzunmüddətli münaqişə perspektivi dünya ölkələrini beynəlxalq ticarət üçün ehtiyat yollar axtarmağa məcbur edir. Qara dəniz regionunda ticarətlə bağlı problemlər və risklər də həll yollarını tələb edir. Ənənəvi ticarət marşrutlarına mühüm alternativ Şimal Dəniz Marşrutu, həmçinin Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi (ITC) boyunca nəqliyyat axınlarının genişləndirilməsi ola bilər. Rusiya rəsmiləri Şimal-Cənub ITC-ni Sankt-Peterburqdan Mumbay (Bombay) limanına qədər ümumi uzunluğu 7200 km olan sərnişin və yüklərin daşınması üçün multimodal marşrut kimi başa düşürlər. Bu marşrut Hindistan, İran və Fars körfəzinin digər ölkələrindən Rusiya ərazisinə (Xəzər dənizi vasitəsilə) və daha sonra Şimali və Qərbi Avropaya tranzit yük axınlarını cəlb etməlidir. Azərbaycanla yanaşı qonşu ölkələr də özlərini üç fərqli qol təklif edən Şimal-Cənub dəhlizinin bir hissəsi hesab edirlər. Azərbaycan ərazisindən avtomobil və dəmir yolu nəqliyyatı, Transxəzər, Rusiyanın və İranın dəniz limanları vasitəsilə, o cümlədən Qazaxıstan və Türkmənistan ərazisindən keçən şərq quru yolu ilə dünyaya uzanan yollar şaxələnməkdədir.

### İki böyük infrastruktur layihəsi

İran və Hindistanın da iştirak edəcəyi Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin həyata keçirilməsi Azərbaycana beynəlxalq ticarətdə mərkəzi yer tutmağa imkan verəcək, Bloomberg ekspertləri izah edir. Agentliyin məlumatına görə, yeni marşrutlar vasitəsilə malların istehlakçılara çatdırılması üçün tələb olunan vaxt Süveyş kanalı vasitəsilə ənənəvi marşrutla müqayisədə 30-50% daha sürətli ola bilər. Bundan əlavə, bu xətt Qırmızı dənizdə gəmiçiliklə bağlı təhlükələrdən qaçmağa imkan verir. Amerikalı ekspertlər bu layihələrin Azərbaycanı “beynəlxalq ticarətin böyük hissəsinin mərkəzinə çevirə biləcəyini” düşünürlər. Bloomberg izah edir ki, bu layihələr sayəsində “inkişaf etməkdə olan bazarlar nəhayət inkişaf etmiş ölkələrin yaratdığı hegemonluqdan xilas olurlar”.

Bu gün aydındır ki, Şimal-Cənub, həm də Ota Dəhliz marşrutları böyük infrastruktur sərmayələri tələb edir, çünki hətta dəniz yolları belə riskli olaraq qalır. Heç kimə sirr deyil ki, quru yük gəmiləri tez-tez Volqa-Xəzər Dəniz Gəmiçiliyi kanalında quruya çıxır. Rəsmilər isə Şərq-Qərb marşrutu üzrə nəqliyyatdan gələcək nailiyyətlər kimi danışırlar. Yəmənli üsyançıların - husilərin Qırmızı dənizdəki hücumlarına görə digər marşrutlar gəmilər daha cəlbedici görünür. Orta Dəhliz də bu marşrutlardan biri və birincisidir.

Rusiya alimləri arasında Şimal dəniz yoluna da münasibət birmənalı deyil. Onun istifadəsinin perspektivləri ilə bağlı hələ də müzakirələr gedir və bu müzakirəyə həm planetdəki iqlim dəyişiklikləri, həm də geosiyasi və iqtisadi amillər təsir göstərir. Şimal Dəniz Marşrutunun inkişafı və onun Süveyş kanalına rəqibə çevrilməsi üçün sanksiyalar şəklində əhəmiyyətli maneələr var ki, bu da həm tranzitə, həm də yeni buz sinifli gəmilərin tikintisinə təsir göstərir. Bundan əlavə, Şimal Dəniz Marşrutunun yeganə nəqliyyat arteriyası ola biləcəyi yataqların işlənməsində problemlər var.

Bloomberg-in hesablamalarına görə, Rusiya Federasiyası İran ərazisindən keçən nəqliyyat dəhlizinin, o cümlədən dəmir yolu rabitəsinin inkişafına və Rusiya Federasiyasının Arktika dənizlərinin sahil xətti boyunca - Şimal dəniz marşrutu boyunca infrastrukturun inkişafına 25 milyard dollardan çox sərmayə yatıra bilər. Bundan əlavə, Moskva şərqə ixrac edən Trans-Sibir dəmir yolunu və Baykal-Amur magistral xəttini genişləndirir. Bununla belə, agentlik iddia edir ki, Qərbin sanksiyaları səbəbindən Şimal Dəniz Marşrutunun inkişafı səngiyib və bu, xüsusilə Arctic LNG 2 layihəsinin zavodlarından maye qazın ixracına mane olur. Bəzi Çin nəqliyyat şirkətləri ikinci dərəcəli məhdudiyyətlərdən qorxduqları üçün Şimal Dəniz Marşrutu ilə yüklərin göndərilməsini artıq dayandırıblar. Şimal dəniz yolu ilə konteyner daşımalarının inkişafı ilə bağlı danışıqlar da davam etdirilir.

Qeyd etdiyimiz kimi, Böyük İpək Yolunun keçdiyi Orta Dəhliz marşrutu təhlükəsiz olmaqla bərabər, həm də xərcləri azaldır, vaxta qənaət edir. Azərbaycanda inşa olunan infrastruktur, logistik imkanlar və xüsusən də etibarlılıq amili ölkə olaraq Azərbaycana, kommunikasiya xətti olan Orta Dəhlizə böyük üstünlüklər və dividentlər gətirir.

**V.VƏLİYEV**

ANALİTİK

# Bərpaolunmayan enerji mənbələrini necə qorumalı?



## Enerji səmərəliliyi və qənaət üçün evimizdə olduqca çox təbir görə bilərik

***Gələcək nəsillərə yaşamaq üçün əlverişli, enerji ehtiyatı bol olan bir dünya miras qoya bilmək hamımızın birinci vəzifəsi olmalıdır. Bərpaolunmayan enerjidən asılılığın azaldılması və enerjinin bərpaolunan mənbələrdən təmin edilməsi ölkəmizin bu istiqamətdə ilk hədəflərindəndir. Bu istiqamətdə dövlətə və təbiətə dəstək vermək hər bir vətəndaşın vəzifəsidir. İstehlak vərdişlərimizi bir az dəyişsək təbiətin ehtiyatlarının tükənməməsi baxımından çox faydalı ola bilər.***

Enerjiyə qənaət haqqında məlumatlı olmaq təbiəti qorumaqla yanaşı həm də büdcəmiz üçün çox vacibdir. Bərpa olunan enerji mənbələrindən istifadə etməklə yanaşı, evimizdə istifadə etdiyimiz enerjinin miqdarına diqqət yetirmək də enerji balansının qorunmasında ciddi rol oynayır. Evinizdə etdiyiniz kiçik dəyişikliklər sayəsində israfçılığın qarşısını ala, ətraf mühitin və təbii sərvətlərin qorunmasına töhfə verərək gələcək nəsillərin ehtiyaclarını ödəyə, enerjiyə qənaət edərək ödənişlərinizi azalda bilərsiniz.

Bəzi xırdalıqlara fikir verməklə həm tükənən enerji mənbələrinə qənaət etmiş olarıq, həm də ailə büdcəsinə. Araşdırmalara görə, izolyasiya edilməmiş binaların pəncərələri, divarları, pilləkənləri, tavanları və döşəmələri istilik itkisində mühüm paya malikdir. Binadan çıxan istilik miqdarını azaldan istilik izolyasiyası enerjiyə qənaət üçün ilk və ən vacib addımdır.

Evdə elektrik cihazları və işıqlandırma üçün elektrikdən istifadə edirik. İstehlakımız olan elektrikin 30%-i soyuducu, 12%-i işıqlandırma, 9%-i paltaryuyan, 9%- kombi, kondisioner, 7% -i televizorlar, 4%-i qabyuyan, 3%-i digər mətbəxdəki elektrik avadanlıqları, 26%-i isə digər avadanlıqların payına düşür. Evimizə elektrik avadanlıqları alarkən enerji qənaətli növünü seçməyimiz istehlak faizimizi azaltmağa kömək edəcək. Cihazların üzərində enerjiyə qənaət etdiyini qeyd edən bildiriş olur. Kondisioner alarkən kondisionerin sizin evinizin kvadratına görə tutumunu nəzərə alın. Kondisionerdən səmərəli istifadə üçün uyğun tutum seçimi çox vacibdir. Daha böyük kondisioner həmişə daha yaxşı demək deyil, bu enerji sərfiyyatında da özünü göstərəcək. Həmçinin, televizor, paltaryuyan, soyuducu alarkən də enerji qənaətli avadanlıq seçin.

Bu gün ən əsas ehtiyaclardan birinə çevrilən enerji bu sürətlə istehlak edilməyə davam edərsə, yaxın gələcəkdə resursların tükənməsi, hətta istehsal olunmaması ilə nəticələnə bilər. Bu səbəbdən enerji ehtiyatlarını qorumaq və istehlakda pula qənaət etmək vacibdir. Enerjidə kiçik tədbirlər böyük qənaət təmin edir. Bu gün qazandığımız hər bir qənaət gələcəyimizə töhfə verəcək. Uşaqlara gözəl gələcək qurmaq üçün enerji və enerji resursları israf edilməməlidir.

Enerji səmərəliliyi, məhsul və xidmətlərin təmin edilməsi üçün tələb olunan enerji miqdarının azaldılması deməkdir. Məsələn, bir evin düzgün izolyasiyası, binanın ideal temperatura nail olmaq və saxlamaq üçün daha az istilik və soyutma enerjisi istifadə etməsinə imkan verir. Led işıqlandırmadan istifadə, ənənəvi közərmə üsulu lampalarından istifadə ilə müqayisədə, eyni işıqlandırma səviyyəsinə nail olmaq üçün tələb olunan enerji miqdarını azaldır. Enerji səmərəliliyinin yaxşılaşdırılması çox vaxt, daha səmərəli texnologiya və ya istehsal prosesinin qəbul edilməsi, həmçinin enerji itkilərini azaltmaq üçün ümumi qəbul edilmiş metodların tətbiqi ilə əldə edilir.

Enerjidən istifadənin azaldılması enerji xərclərini azaldır. İstehlakçılar enerjiyə qənaət edən texnologiyanın tətbiqi ilə maliyyə xərclərinə qənaət edə bilər. Enerji istifadəsinin azaldılması həm də istixana qazlarının emissiyalarının azaldılması deməkdir. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına görə, binalarda, sənaye proseslərində və nəqliyyatda enerji səmərəliliyinin yüksəldilməsi 2050-ci ilədək dünyanın enerji ehtiyaclarını üçdə bir nisbətədək azalda bilər və qlobal istixana qazları emissiyalarına nəzarət etməyə böyük dərəcədə kömək edə bilər.

Dondurucular, sobalar, qabyuyan və paltaryuyan maşınların müasir modelləri köhnə cihazlardan olduqca az enerji sərf edir. Paltarları paltarqurutma maşınında deyil, ipdə, günəşin altında qurutmaq enerji sərfiyyatını əhəmiyyətli dərəcədə azaldır. Mövcud enerjiyə qənaət edən soyuducular, 2000-ci illərdəki modellərdən 40 faiz az enerji sərf edir. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına görə, Avropadakı bütün ev təsərrüfatları on ildən artıq köhnəlmiş cihazlarını yeniləri ilə əvəz etsəydilər, hər il 20 milyard kVt/saat elektrik enerjisinə qənaət edilərək $CO_2$ emissiyalarını təxminən 18 milyard kq azaltmaq olardı. ABŞ-da müvafiq rəqəmlər 17 milyard kVt/saat elektrik enerjisi və 27 milyard kq $CO_2$ olacaq.







Aparılmış araşdırmaya görə, köhnə cihazların dəyişdirilməsi istixana qazı emissiyalarını azaltmaq üçün ən təsirli qlobal tədbirlərdən biridir. Müasir enerji idarəetmə sistemləri həmçinin müəyyən müddətdən sonra boş qalan cihazları söndürməklə və ya aşağı enerji rejiminə keçirməklə enerji istehlakını azaldır. Məsələn, televizora baxmadıqda onu pultdan söndürmək yerinə naqili enerjidən ayırmaq lazımdır. Əgər telefon enerjiyə qoşulmayıbsa enerji cihazını daim naqildə saxlamaq da enerji israfıdır. Enerji səmərəliliyinin pik tələbata təsiri, cihazın nə vaxt istifadə olunduğundan asılıdır. Məsələn, günorta hava çox isti olanda kondisioner daha çox enerji sərf edir. Buna görə də, enerjiyə qənaət edən kondisioner daha sərfəli olacaq.

Bina inşası bütün dünyada enerji səmərəliliyinin artırılması üçün mühüm sahədir, çünki onlar enerjinin böyük istehlakçılarıdır. Binalarda enerji istifadəsi problemi sadə problem deyil, bəlkə də ən çox israf edilən istiqamətdir. Binalardakı ümumi işıqlandırma, istilik, soyutma və ventilyasiya, lift xidməti - hamısı enerji istehlak edir. Ümumi blokların işıqlandırılma sistemi sensor üsulu hərəkətə əsaslanan tipli olsa enerjiyə əhəmiyyətli dərəcədə qənaət edilə bilər. Binaların damına qoyulmuş günəş panelləri ilə də binaların enerji istehlakına qənaət etmək olar.

Binanın yeri və ətrafı, onun temperaturunun və işıqlandırılmasının təbii yolla tənzimlənməsində mühüm rol oynayır. Məsələn, ağaclar, parklar binanın məruz qalacağı küləyin qarşısını ala, bununla da istiliyin mühavizəsi tənzimlənə bilər. Daha soyuq iqlimlərdə binalarının cənuba baxan pəncərə ilə layihələndirilməsi, passiv günəş istiliyini maksimum dərəcədə artırmaqla binaya daxil olan günəşin miqdarını artırır. Binanın dizaynı, o cümlədən enerjiyə qənaət edən pəncərələr, yaxşı izolyasiya edilmiş qapı və divarlar, döşəmə və tavanın əlavə izolyasiyası istilik itkisini 25-50 faiz azalda bilər.

Tünd rəngli dam örtükləri ağ rəngə boyanmış damlardan 39 °C-ə qədər daha istilik mühavizə edə bilir. Bu damlar istiliyin bir hissəsini binaya ötürürlər. ABŞ-da aparılan tədqiqatlar isə açıq rəngli dam örtüklərinin tünd rəngli dam örtüklərinə nisbətən soyutma üçün 40 faiz daha az enerji sərf etdiyini göstərib. İsti iqlimlərdə ağ dam örtükləri, soyuq iqlimlərdə isə tünd rəngli dam örtükləri enerjiyə qənaət üçün vasitə ola bilər.

Dünyadakı şəhərlərdə milyonlarla küçəni milyonlarla işıq lampaları işıqlandırır. İndi bəzi şəhərlər qeyri-pik saatlarda işıqları zəifləməklə və ya led işıqlarına keçməklə küçə işığının enerji istehlakını azaltmağa çalışır. Qeyd edək ki, led lampaların enerji istehlakını 50-80%-ə qədər azaltdığı bildirilir. Enerji sərfiyyatını, dolayısı ilə xərclərimizi azaltmaq üçün enerjidən istehlakı minimuma endirməli,

beləcə gələcək nəsillər üçün daha təminatlı bir gələcək qura bilərik.

***Lalə Mehralı***

# Sağlam həyat tərzi etibarlı gələcəyin təminatıdır”

***Aprelin 19-da Naxçıvan şəhərində “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC arasında imzalanmış tədbirlər planına müvafiq olaraq “Sağlam həyat tərzi etibarlı gələcəyin təminatıdır” mövzusunda tədbir keçirilib.***





Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, Heydər Əliyev Muzeyi ziyarət olunub.

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə ilk olaraq Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar Siyasət



Komitəsinin sədri Elman Cəfərli mövzunun əhəmiyyətindən bəhs edib. Yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq üçün təbliğat işlərinin önəmindən danışan E.Cəfərli cəmiyyətin inkişafı üçün vacib amillərdən birinin məhz sağlam həyat tərzi olduğunu diqqətə çatdırıb. O, narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq ölkəmizdə müvafiq proqramların qəbul edilməsinin sağlam gələcəyimiz üçün önəmli olduğunu vurğulayıb. Elman Cəfərli çıxışında Naxçıvan MR-da narkomaniyaya qarşı mübarizə ilə bağlı həyata keçirilən maariflendirmə tədbirləri haqqında da məlumat verib.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva ölkəmizdə narkomaniyaya qarşı ciddi mübarizə aparıldığını bildirib. O qeyd edib ki, bu problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi yeniyetmə və gənclər arasında maarifləndirmə işinin genişləndirilməsidir. Təhsil, səhiyyə ocaqlarında, hüquq mühafizə orqanlarında və digər təşkilatlarda narkomaniyanın zərərləri barədə maarifləndirmə kampaniyalarının aparılması bu baxımdan olduqca önəmlidir. Onun sözlərinə görə, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” bu problemlə sistemli mübarizə aparılması baxımından mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında bildirib ki, narkomaniya müasir dünyanı ciddi narahat edən problemlərdən biri olmaqla yanaşı, insanların sağlamlığına təhlükə yaradan, cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən amillərdən biridir. Onun sözlərinə görə, bu kimi zərərli vərdişlər bir çox ailələrin dağılmasında da əsas səbəblərdən biridir. Buna görə də sağlam ailə, sağlam cəmiyyət naminə zərərli vərdişlərə qarşı mübarizə hər zaman aktualdır. R.Seyidova rəhbərlik etdiyi qurumun bu istiqamətdə həyata keçirdiyi maariflənmə tədbirləri haqqında da məlumat verib.



Sonra çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, müasir dövrdə gəncləri zərərli vərdişlərdən qorumaq mühüm çağırışdır. Gənclər daha çox biliklər qazanmağa, sağlam həyat tərzinə üstünlük verməli, eyni zamanda, narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər. Onun sözlərinə görə, yeniyetmə və gənclərimizin təlim-tərbiyəsi, elmə, təhsilə və idmana marağının artırılması da onların zərərli vərdişlərdən uzaqlaşmalarında vacib amildir.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev isə bildirib ki, narkotik maddələrdən asılılıq insanın ailəyə, cəmiyyətə bağlılığını azaldır və nəticədə onu cəmiyyət üçün faydasız fərdə çevirir. O qeyd edib ki, dövlət tərəfindən bu sahədə zəruri tədbirlər həyata keçirilir. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın bir çox bəndləri məhz maarifləndirmə məsələlərinə həsr olunub.

Çıxış edən Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov narkotik maddələrin insan sağlamlığına vurduğu zərərdən və törətdiyi fəsadlardan ətraflı bəhs edib. O, gəncləri bu bəladan uzaq olmağa çağırıb. Sonra gənclərin sualları cavablandırılıb. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# “Atılan hər addım zamanında olur və ölkəmizə uğur gətirir”



“Sülhməramlıların ərazilərimizdən çıxarılmasına ABŞ Dövlət Departamentinin nümayəndəsinin ”Rusiya etibarsız tərəfdaşdır” deməsi riyakarlıqdır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.

Deputat bildirib ki, bu bir daha onu göstərir ki, ABŞ və Aİ Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına heç vaxt razı olmayıb: ”Ona görə də münaqişə 30 il davam etdi. Amma

## MÜNASİBƏT

ABŞ və Fransa istəsəydi, BMT TŞ-nın qətnamələri vaxtında icra olunardı və İkinci Qarabağ müharibəsinin baş verməsinə ehtiyac qalmazdı. Hətta müharibənin başa çatdığı 3,5 ildə də Ermənistanla davamlı sülhün əldə olunmamasının əsas səbəbi Qərbin münaqişənin bitməsini istəməməsindən irəli gəlir.

ABŞ Rusiya hərbiçilərinin digər ölkələrdən çıxarılmasını dəstəkləyir və hətta tövsiyyə etdiyi halda Azərbaycanda isə qalmağını və əbədiləşməsini arzulayırdı. Bu yanaşmanın kökündə Cənubi Qafqazda vəziyyəti gərginləşdirməklə yenidən müharibəyə sövq etdirmək arzuları olmuşdur. Ona görə də 5 apreldə Brüsseldə keçirilən görüşdə mediaya görünən hissədə görüşün iqtisadi dəstəklə bağlı olduğu kimi göstərməyə çalışsa da, pərdəarxası danışıqlar hərbi yardımın göstərilməsi, 102-ci Rusiya hərbi bazasının Ermənistandan çıxarılması və ABŞ-ın hərbi mövcudluğunu təmin edəcək siyasətin davam etdirilməsi ilə bağlı olmuşdur. Məhz görüşdən sonra ABŞ-ın Ermənistana müəyyən hərbi texnikanın göndərilməsini də keçirilmiş Brüssel görüşünün nəticəsi kimi qeyd edə bilərik. ABŞ və Aİ Azərbaycanla Ermənistan arasında gərginliyi artırmaqla yeni müharibə ocağını yaratmaq istəyir. Ona görə də Ermənistan delimitasiya prosesini süni uzadır və sülh danışıqlarını manipulyasiya edir. Amma Rusiya sülhməramlıların ərazilərimizi tərk etməsi həm Qərb üçün, həm də Ermənistan üçün bir sürpriz oldu. Bu, Qərbin Qarabağdan könüllü çıxmış ermənilərlə bağlı planlarının puç olmasına gətirdi.

Prezident İlham Əliyev dünyada və regionumuzda baş verən prosesləri çox düzgün analiz edə bilir. Ona görə də atılan hər bir addım əsil zamanında olur və ölkəmizə uğur gətirir”.

***Söylü Ağazadə***

# Qərbə inamsızlıq fonunda HAYLAR ARASINDA NARAHATLIQ

***Qərbin hər zaman mənasız, yalan və boş vədlər, ümidlər verdiyi artıq dəfələrlə öz təsdiqini tapıb və Ermənistana da eyni şəkildə yalançı vədlər verdiyi diqqətdən yayınan deyil. Gürcüstanın çox ümid etdiyi Qərbin həmin ölkəni müdafiəsiz qoyduğunun da şahidi olduq, Rusiyasının yerlə-yeksan etdiyi Ukraynaya kömək etməkdən boyun qaçırdığını və meydanda tək qoyduğunu da gördük. ABŞ və Avropa İttifaqının Ermənistana real təhlükə zamanı kömək edəcəyinə nəinki heç kim zəmanət verə bilməz, ümumiyyətlə, bu barədə kimsə hansısa iddiada belə ola bilməz. Təsadüfi deyil ki, artıq erməni cəmiyyəti məhz buna görə narahatdır, çünki hadisələrin gedişi də həmin narahatçılığa əsas verir.***

### Paşinyan Qərbə ümud etməyin mənasız olduğu barədə açıq-aydın şəkildə açıqlama verib

İndi erməni cəmiyyəti müşahidə edir ki, kollektiv Qərb guya Ermənistanın təhlükəsizliyinin qarantı kimi sadəcə özünü göstərməyə çalışır və get-gedə hayların ümidləri də bu baxımdan puç olur. Artıq erməni cəmiyyərində həyəcan təbili çalınır, çünki haylar hiss etməyə və başa düşməyə başlayırlar ki, onların məhz Ermənistan dövlətinin taleyini kollektiv Qərbin əlinə vermək cəhdləri ölümcül nəticələrə gətirib çıxaracaq. Diqqət çəkən məqam odur ki, bu vaxta qədər Ermənistan hakimiyyəti Qərbin onları müdafiə edəcəyinə hayları inandırmağa çalışırdı, amma indi onların artıq belə bir niyyətdə olmadığını da görmək çətin deyil. Beləki, artıq Ermənistanın baş naziri Nikol Paşinyan özü belə Qərbə ümud etməyin mənasız olduğu barədə açıq-aydın şəkildə açıqlama verməyə məcbur olub. O bildirib ki, aprelin 5-də Brüsseldə keçirilən yüksək səviyyəli Ermənistan-ABŞ-Aİ görüşü Aİ və ABŞ-ın onların problemlərinin həll edilməsi ilə bağlı deyil. O əlavə edib ki, Aİ və ABŞ Ermənistanla siyasi islahatlar, iqtisadi inkişaf, idarəetmə, ticarət, rabitə, kənd təsərrüfatı, aviasiya təhlükəsizliyi və enerji, o cümlədən nüvə enerjisi kimi sahələrdə əməkdaşlığı genişləndirməyə hazır olduqlarını bildirib, amma Aİ və ABŞ-ın hər zaman Ermənistanı dəstəkləyəcəyi, yaxud qarant kimi çıxış edəcəyi barədə qətiyyən söz açmayıb. Heç şübhə ediləsi deyil ki, erməni baş nazir hansısa şəkildə manipulyasiya edərək, diqqəti yayındırmağa, nəyi isə gizlətməyə, görüş zamanı hansı məsələlərin müzakirə edildiyini gizlətməyə çalışır, amma bütün bunların fonunda Vovayeviçin Qərbin dəstəyi ilə bağlı ümidsiz olduğu da özünü biruzə verir. Daha dəqiq desək, Qərbə ümid etməyin mənasız olduğunu Paşinyan açıq şəkildə bəyan edə bilib.

### Qərbə güvənərək ruslara qarşı xəyanətlər edən haylar özlərinin oda atmış olduqları qənaətindədirlər və buna görə qorxu keçirirlər

Bəli, demokratiya, qanunun aliliyi, korrupsiya ilə mübarizə məsələləri kollektiv Qərb üçün maraqlı görünə bilər. Bunlar təbii ki, elə Ermənistan üçün də maraqlı və vacibdir. Amma haylar bu sadalananlara indiki və gələcək xarici siyasətdə hansısa kəskin və problemlərlə dolu olan yayınmalar olmadan, Rusiyaya qarşı çıxıb Qərbə meyl etmədən də nail ola bilərdilər. Amma bu yolda Qərbə güvənərək özlərinin oda atmış oldular. Qərb yönümlü olduqlarını göstərərək və Qərbin qarant olacağına ümid edərək, Rusiyaya ası oldular, ruslara qarşı çox xəyanətlər etdilər və indi buna görə zərbə alacaqlarından bərk qorxu keçirməkdədirlər. Qorxu keçirmələrini başa düşmək çətin də deyil, çünki rusların cavabının olacağına əmindirlər. Məsələ burasındadır ki, Rusiyanın nə edəcəyi barədə plan da çox güman ki, artıq hazırdır və hətta ölkənin gündəliyinə də daxil edilib. Sözsüz ki, həmin plan təkcə şəxsən Paşinyan üçün yox, elə Ermənistan üçün də ciddi problemlər deməkdir. Qərb isə bununla bağlı nəinki heç nə edə bilməyəcək, ümumiyyətlə, nə isə etmək barədə belə düşünməydiyi belə göz önündədir. Hətta haylar özləri belə hesab edirlər ki, Qərb artıq öz zəifliyini, çarəsizliyini etiraf etməyə hazırdır. Bunun isə ermənilər üçün nə demək olduğunu özləri hamıdan yaxşı bilirlər və yuxularının ərşə çəkilməsi də bu baxımdan tam şəkildə başadüşüləndir.

Son hadisələr, daha dəqiq desək, Rusiya sülhməramlı kontingentinin Azərbaycan ərazilərini tərk etməyə başlaması ümumiyyətlə, haylar üçün böyük bir şok oldu. Əvvəla ona görə ki, haylar öz ərazilərində olan və Rusiyaya məxsus 102-ci hərbi baza ilə bağlı hay-küy qoparmalarına rusların məhəl qoymadığı halda, səssiz-səmirsiz, iki ölkənin ali rəhbərliyinin qərarı ilə sülhməramlıları Azərbaycan ərazilərindən çıxarmağa başlaması bütün erməni cəmiyyəti üçün gözlənilməz soyuq duş effekti oldu. Digər tərəfdən də haylar başa düşdülər ki, ümumiyyətlə, ruslar nəinki onları, heç arxalandıqları Qərbi belə hesaba almır, saya salmırmış. Hər halda erməni cəmiyyəti başa düşür ki, əgər Rusiya indiki məqamda Qərbi hesaba almış olsaydı, özləri əraziləri tərk etdikdən sonra, Qərbə məxsus hansısa hərbi kontingentin regiona yerləşdirilməsi ilə bağlı imkanlarının olduğunu real hesab etsəydi, qətiyyən bölgəni tərk etmək barədə düşünməzdi. Əksinə, müddəti bacardıqca uzatmağa çalışardı. Əgər haylar bunun əksini müşahidə edirlərsə, başa düşürlər ki, ruslar bunun mümkünsüzlüyünü nəzərə alaraq, hesablayaraq, saymazyana şəkildə bölgəni tərk etməkdədirlər. Deməli, ortada qalan haylar özləridir və getdikcə daha dərin quyuya yuvarlanmaqdadırlar. Hər halsa bunu görmək onların özləri üçün ən azından, kifayət qədər həyəcanverici̇dir və haylar arasında narahatlıq da bu səbəbdəndir.

### Haylar tam zamanında nəticə çıxarmalıdırlar ki, özləri ukraynalıların, ölkələri də Ukraynanın vəziyyətinə düşməsin

Ukrayna ilə bağlı təcrübə də hayların kürkünə birə salıb. Haylar görürlər ki, ukraynalıları qızışdırıb müharibəyə, münaqişəyə sövq edən Qərb indi bütün məsuliyyəti elə onların öz üzərinə atır. Görünən odur ki, Qərb açıq şəkildə bildirir ki, ukraynalılar ruslarla özləri dil tapmalıdırlar. Bu isə o deməkdir ki, Qərb Ukraynanı meydanda tək buraxır və qətiyyən üzərinə məsuliyyət götürmək niyyətində belə görünmür. İndi ukraynalılar ruslarla üz-üzə qalıblar və bu qədər itgilər, bu qədər dağıntılar, bu qədər tələfatdan sonra onların bir-biri ilə dil tapmaları da özlərinə həvalə edilib. Qərb heç vasitəçi qismində belə çıxış etmək istəmir və açıq şəkildə bəyan edir ki, tərəflər öz aralarında danışıqlar apararaq razılığa gəlməli, bir sözlə, öz problemlərini özləri həll etməlidirlər. Bunun nə demək olduğunu yəqin ağlı başında olan hərhansı erməni də yaxşı başa düşür və bilir ki, nəticədə onlar yenə də ruslarla üz-üzə qalanda Qərbə arxalana bilməyəcəklər. Çünki Ukraynanın arxasında dayanmayan Qərbin bundan sonra Ermənistanı müdafiə edəcəyi ehtimalı sıfır səviyyəsində görünür.

Ukrayna prezidenti Vladimir Zelenskinin 25 Patriot batareyası istəməsinə məhəl qoyan yoxdur. Bu vaxta qədər maddi yardımlar etməklə işini bitmiş hesab edən Qərb bilmirmi ki, müharibədə canlı qüvvə və hərbi texnika, silah-sursat əsaslı rol oynayır?



Əlbəttə ki, bilir. Özü də çox yaxşı bilir. Amma indi heç heç yardım haqqında belə düşünmür. ABŞ və Aİ sadəcə olaraq, bu vaxta qədər söz oyunu oynasa belə, indi heç vəd belə vermək istəmir və açıq-aydın şəkildə bildirir ki, güvəniləsi deyil. Belə bir vəziyyətdə qalan ukraynalılar üçün geri yol qalmır. Ruslar hər gün Ukrayna şəhərlərini yerlə-yeksan etməkdə davam edirlər. Hər gün Ukrayna vətəndaşları həyatlarını itirirlər. Hər gün ukraynalılar faciələrlə üzləşməli olurlar. Bütün bunlar isə Qərb tərəfindən sadəcə olaraq, seyr edilir. Nə belə müttəfiqlik, nə də belə qarant olmaq olmaz, hansıki bunu dərk edən hayların həyacan keçirmələri, hətta hədsiz dərəcədə qorxmaları belə tamamilə məntiqidir. İndi elə haylar tam zamanında belə bir vəziyyəti görməli və qorxmalıdırlar ki, özləri ukraynalıların, ölkələri də Ukraynanın vəziyyətinə düşməsin.

### Rusiya ilə Qərb arasında qalan, ruslara qarşı xəyanətə sövq edilən Ermənistanın gələcəyi ilə bağlı hayların qorxu hissi

Bir-birinin ardınca Qərbə, Avropaya səfərlər edən Ermənistan hakimiyyəti də, həmin ölkənin vətəndaşları da əvvəlcə elə zənn edirdilər ki, bir göz qırpımında istədiklərinə nail olacaqlar. Sanki avropalıların, yaxud da amerikalıların gəlib onların əvəzinə hər şeyi həll etməli olacağına böyük ümidlər bəsləyirdilər, amma nəticədə onların da maddi yardımlarla tovlanıldıqlarının şahidi olmuş oldular. Hətta haylar əl açıb dilənməklə belə müəyyən vəsaitləri də əldə etməyi özlərinə rəva bilirdilər, amma Qərb onların ümid etdiklərindən onlarla dəfə az vəsait ayırdığında bu, haylar üçün soyuq duş effekti oldu. Haylar milyardlarla dollar vəsait gözlədikləri halda, cəmi 350 milyon dollar, özü də dörd il müddətinə qrantlarla ayrıldığını gördükdə başları daşa dəymiş oldu. Bəzi ağlı başında olan erməni də anladı ki, bu vəziyyət onlar üçün dərs olmalıdır. Çünki bununla haylar anlamalı idilər ki, bu gün gözlədikləri, daha doğrusu umduqları milyardlar verilmədiyi kimi, gələcəkdə də istədikləri, gözlədikləri yardımlar verilməyə bilər və bu da həmin anda fəlakətə səbəb ola bilər. Çünki Ermənistanın hansı vəziyyətdə olduğunu, necə səfalət içərisində inlədiyini, büdcəsinin də, arsenalının da yox dərəcəsində, sıfır həddində olduğunu ermənilər özləri hamıdan yaxşı bilirlər və əmindirlər ki, köməksiz halda onlar fəlakət astanasındadırlar.

Yenə də bu məqamda Rusiya sülhməramlı kontingentinin Azərbaycan ərazilərini tərk etməyə başlaması hayları düşündürməyə bilməz. Bu məqam bütövlükdə erməni cəmiyyətini düşündürür də, narahat da edir. Çünki haylar müşahidə edirlər ki, bölgəni rusların tərk etməsindən sonra amerikalılar qətiyyən onların arzuladıqları və gözlədikləri fikirləri onlardan eşitmirlər. Daha dəqiq desək, haylar görürlər ki, Qərb qətiyyən bölgəyə öz kontingentinin yerləşdirilməsi barədə düşünmək belə fikrində deyil. Əksinə, erməni cəiyyəti müşahidə edir ki, Qərb indi də Rusiya sülhməramlılarının Azərbaycan ərazilərini tərk etməsinə narazılıq ifadə edir, həmin sülhməramlı kontingentin bundan sonra da bölgədə qalmasının vacibliyini bildirirlər və deməli, belə olan halda bundan sonra da onlardan nə isə gözləməyin mənasız olduğu qənaətinə gəlinir. Bir sözlə, haylar gözlədiklərini, arzuladıqlarını amerikalılardan nəinki ala bilmirlər, ümumiyyətlə, belə bir niyyətlərinin də, arzularının da puç olduğu qənaətindədirlər. Yəni, ölkələrinin də, özlərinin də gələcəyi ilə bağlı qorcu, həyəcan, narahatlıq keçirmələri anlaşılandır.

Hazırda Ermənistana məxsus mətbuat səhifələrində Qərbi ittiham edən yazılar dərc edilir və bu heç də təsadüfi deyil. Kollektiv Qərbin öz yaxasını kənara çəkməsi, bundan sonra da Ermənistana qarant olmayacağı barədə kəskin yazılara rast gəlinir. Haylar təkcə ittihamlarla belə kifayətlənmirlər və bir çox hallarda Qərbin ünvanına təhqir ifadələri də işlədilir. Məsələn, haylar Qərbi qorxaqlıqda ittiham edirlər. Rusiya ilə qarşıdurmadan Qərbin çəkindiyini vurğulayaraq, amerikalıların da, avropalıların da ruslardan qorxduqlarını açıq-aşkar qeyd edirlər. Bəzən onlar hətta Qərbi “yazıq” adlandırırlar. Bir çox hallarda çarəsiz kimi də qələmə verirlər. Amma bütün bunların fonunda, əlbəttə ki, Rusiya ilə Qərb arasında qalan, hətta ruslara qarşı yanlışlıqlara, səhvlərə, xəyanətə məhz Qərb tərəfindən sövq edilən Ermənistanın gələcəyi ilə bağlı da qorxu hissi keçirdikləri özünü göstərir. Təbii ki, belə bir qorxu hissi keçirmələri indiki məqamda daha çox anlaşılandır və indi haylar məhz həmin qorxu kompleksi fonunda heç olmasa bundan sonra da olsa, mənasız yerə, boş yerə Qərbə güvənib cızıqlarından çıxmamalıdırlar, çünki güvənclərinin puç olması fonunda bunun onlara nəin bahasına başa gələcəyini indidən yəqin edə bilərlər...

***İnam Hacıyev***

# Tarixi qələbənin möhtəşəm hissləri

*Rusiya hərbi kontingentinin ərazidən çıxarılmasına başlanılıb, Rusiya-Türkiyə birgə monitorinq mərkəzinin fəaliyyətlərinin isə dayandırılması barədə qərar verilib*

***O tarixi günü yaddan çıxartmaq mümkün deyil. Həmin gün, yəni iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə Şuşa şəhərinə səfərləri zamanı yol üstü maşınlarını saxlayıb, hər iki dövlət başçıları ətrafı seyr etdilər. Bu zaman Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan əli ilə Xankəndi şəhərini göstərib, "otelimiz oradadadır" sualını edincə, Fateh Sərkərdə İlham Əliyev gülərək " o da olacaq" cavabını verdi. O şirin söhbətdən qısa vaxt keçdi, artıq biz Xankəndi şəhərindəyik. Yaxın vaxtlar da isə Xankəndi və ətraf kənd və qəsəbələrin sakinləri öz doğma yurd –yuvalarına qayıdacaqlar.***

Bununla da o ərazilərə yeni nəfəs, yeni rəng qatılacaq. Söz yox ki, işağldan azad edilən ərazilər yenidən qurulacaq, insanlarımızda doğma yurdlarına dönəcəklər, lakin ermənilərin o yerlərdə törətdikləri vandalizm aktları, soydaşlarımıza qarşı törətdikləri vəhşilikləd heç zaman unudulmayacaq. Bəlkə də nə zamansa ermənilərlə sülh müqaviləsi imzalansın, hətta gediş gəlişdə olsun. Bu hal arzuolunmasa da bəşəriyyətin mövcud reallığıdır. Ancaq əminliklər demək olar ki, uca millətimiz heç bir vaxt erməni vəhşiliklərini, vandalizm əməllərini yaddan çıxartmayacağıq. Söz yox ki, bəşər övladı dinindən, irqindən, tutduğu mövqeyindən asılı olmayaraq kimsə müharibə arzu etməz və ölkəsinin odlu-alovlu olmasını istəməz. Allahın yaratdığı bütün varlıqlar sülh, əmin-amanlıq içində yaşamaq, səmasının aydın, torpağının rahat nəfəsini duymaq istəyir. Amma haqqının tapdandığı, torpağının işğal edildiyi, insanlarının qətliamlara düçar olub, ev-eşiyindən zor gücünə didərgin salınmasına heç bir halda dözmək olmaz. Bir növ döyüş meydanında ədaləti bərpa etmək vacibdir. Necə ki, faşist təfəkkürlü Ermənistan rəhbərliyi 1991-1993-cü illərdə Azərbaycanda yaranan hakimiyyət böhranından, AXC-Müsavat iqtidarının səriştəsizliyindən istifadə edərək 20 faiz torpaqlarımızı işğala edib, 1 milyona yaxın insanı ev -eşiyindən didərgin salmışdır.

### Hərbi zəfər Azərbaycanın qarşısında dayana biləcək qüvvənin olmadığını göstərdi

Erməni işğalı 30 il çəkdi. Bu müddət ərzində ermənilərlə anlaşmaq mümkün olmadı. Onlar sülh yolu ilə işğal etdikləri torpaqlarımızı azad etməkdən imtina etdilər. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd qətnamə qəbul etdi, AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sülh danışıqlarda nəticəsiz qaldı. Ermənistan isə bu çağırışlara, qətnamələrə əməl etmədi, əksinə Azərbaycan xalqının hisləri ilə oynayan addımlar atıb, açıqlamalar verdi. Ermənistanın baş naziri Nikol Paşinyan içkili vəziyyət də Şuşada rəqs etdi, "Qarabağ Ermənistandır, nöqtə" deyə sərsəm fikirlər səsləndirdi. Bütün bunlar problemin sülh yolu həllinin mümkün olmayacağını nümyaiş etdirdi. Sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsində torpaqlarımız Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad edildi. 44 günlük müharibə ilə Ermənistanın 30 ilə yaxındır ki, qurduğu mühəndis-istekam qurğuları, yüzlərlə hərbi texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Dəyəri 5 milyard ABŞ dolları olan hərbi texnikası qənimət olarq götürüldü. Sonrakı mərhələ də, yəni 2023-cü il sentyabrın 19 başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə bölgədə ki bütütn terrorçular məhv edildi, ölməkdən qorxan separatçıların bir qismi müxtəlif yollarala qaçıb, Ermənistanda gizləndilər. Əsas terrorçubaşlar isə həbs edilərək Azərbaycan istintaq orqanlarına təhvil verildilər. Bu böyük qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək gücündədir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin dediyi kimi, atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın: "Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

Azərbaycan hərb meydanında düşmənə layiq olduğu yerini göstərməklə bərabər bir daha sübut etdi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və Prezident İlham Əliyevin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edilib.Qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Fəxr edirik ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. Milli Məclisin Regional məsələlər Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Siyavuş Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində tarix yazdı: "30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün tam təmin edilməsi şanlı qələbəmizdir. Bütün dünya Azərbaycan dövlətinin qüdrətinə, xalqımızın mübarizə əzminə, ordumuzun rəşadətinə şahidlik etdi.Şübhəsiz ki, qarşıdakı dövrdə qalib ordumuzun qəhrəmanlığı, əsgər və zabitlərimizin igidliyi müxtəlif vasitələrdən istifadə etməklə geniş təbliğ edilməlidir. Bunlardan biri Vətən müharibəsi ilə bağlı həqiqətlərin orta məktəb dərsliklərinə salınmasıdır. Bu, şagirdlərdə vətənpərvərliyin formalaşdırılması və inkişafına xidmət etməklə yanaşı, gənclərin milli ruhda tərbiyəsinə böyük töhfə olar. İkinci məsələ odur ki, 44 günlük Vətən müharibəsi ilə bağlı filmlərin çəkilməsi də vacib əhəmiyyət daşıyır. Aidiyyəti qurumlar tərəfindən mütəmadi şəkildə təhlillərin, araşdırmaların aparması, düşmənin xalqımıza qarşı həyata keçirdiyi törətdiyi bütün cinayətlərin, kənd və şəhərlərimizdə törətdiyi vəhşiliklərin hər birinin tam aşkarlanması, yeni nəsillərə çatdırması olduqca önəmlidir". Qələbələrimizin təməli sentyabrın 27-də qoyulsa da demək olar ki, 8 noyabr 2020-ci il Qarabağımızın incisi Şuşanın azad edilməsi ilə Qarabağa qovuşduğumuz tarixdir. Bu Böyük Qələbə ilə Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu gündür. Azərbaycan,



Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezident, Ali Baş Komandan İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməsi ilə nəticələndi.

### Parlaq qələbədən sonra....

Ermənistanın müqavimət gücü tamamilə qırılandan sonra təslim olmağa məcbur oldu, təbii ki, Azərbaycanın bütün şərtlərini qəbul etməklə. Həmin tarixi gün də Fateh Sərkərdə, Prezident İlham Əliyev xalqa müjdəli müraciətində bildirdi ki, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik

Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi» söyləyən dövlətimizin başçısı İlham Əliyev bu fikirlərin davamı olaraq bildirmişdir ki, "Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!" Hqqımız olan qələbə təntələni şəkildə qeyd olunmalı idi və oldu da. Noyabrın 10-da dostuları sevindirb, düşmənləri xar edən qələbə paradı keçirildi. Bu parad həm də işğal altında olmuş topaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı oldu. "Azadlıq" meydanında keçirilən Qələbə Paradında 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Parada, həmçinin, Vətən Müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. Qürurverici məqamlardan biri də ondan iobarət idi ki, müharibənin ilk günündən ürəyi, qəlbi Qarabağla döyünən qardaş Türkiyənin hakimiyyəti, xüsusilə də Prezident Rəcəb Tayyub Ərdoğan Qələbə Pardında da Azərbaycanla birlikdə oldu. "Tarix təkrar olunur"-deyiblər.

Qələbə Paradında Türkiyə Ordusunun mehmeçikləri sıra keçidində qürurla və əzmlə keçdilər. Bu məqamda Türkiyə qardaşlarımızın bizə olan hədsiz rəğbətinin daha bir nümunəsi ondan ibarət idi ki, Qarabağda şəhid olan 2783 şəhidimiz sayında mehmetçik sıra keçidində iştirak etdilər. Əhsən belə qardaşlığa, var olsun belə birlik. Söz yox ki, qələbə paradımızın yolu uğurlu və xeyirli olacaq. Qələbə Paradı Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılmaqla yanaşı, həm də zamanında Ermənistana pay olaraq verilən Zəngəzurun, Göyçənin, İrəvanın Böyük Azərbaycan torpaqlarına qatılmasına işartı olacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin Qələbə Paradında dediyi fikirlərdə ümidləri artırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Qələbə Pardında Zəngəzurun, Göyçənin, İrəvan mahalının bizim tarixi torpaqlarımız olduğunu bildirdi: "Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb".

Hazırda Qarabağımız dinclik dövrünü yaşayır. Bu günlər bölkəyə müvəqqəti yerləşdirilmiş Rusiyanın hərbi kontingenti ərazidən çıxarılmasına başlanılıb. Yaxın günlər də tamamilə Rusiyanın hərbi kontingenti ərazini tərk edəcək. Daha bir müjdəli xəbər isə, Ağdamda qurulan Rusiya-Türkiyə birgə monitorinq mərkəzinin fəaliyyətlərinin dayandırılması barə də qərarın verilməsidir. Bütün bunlar Azərbaycanın böyük gücə və qüdrətə malik dövlət olmasıdır. Zamanında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: "Azərbaycan dünyayay günəş kimi doğazcaq". Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev isə çıxışlarının birində demişdir: "Biz Qarabağı cənnətə çevirəcəyik". Uğurlar, nailiyyətlər Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dediyi tarixi fikirlər reallaşmağa başladığını göstəririr.

**İLHAM ƏLİYEV**



# Kənd turizminin istifadə edilməyən potensialı

## Gürcüstan 2023-cü ildə turizmdən 4 milyard dollardan çox gəlir əldə edib, Azərbaycanda isə quru sərhədlərin bağlı olması turizmdən gələn gəlirlərin kəskin azalmasına səbəb olub

ANALİZ

***Azərbaycanda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir. Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması üçün klaster yanaşma məqbul sayılır. Klaster yanaşma zamanı yüksək potensialı olan və perspektivi aydın görünən bir neçə sahənin inkişaf etdirilməsi əsas götürülür. Ölkəmizdə yüksək potensial və perspektivləri olan sahələrdən biri də kənd təruzmi və ekoturizm sektorudur.***

Azərbaycan təbii şəraiti, olduqca zəngin və rəngarəng rekreasiya ehtiyatları, xarici və daxili turizmin və əhalinin istirahətinin təşkili üçün hər cür şəraitə malikdir. Respublikamızın əlverişli iqlim şəraiti, ilboyu zirvələri qar və buzlaqlarla örtülü olan ecazkar quruluşu, cəlbedici landşaftı, çoxsaylı dağ çayları və şirinsulu gölləri, insanı heyrətə gətirən şəlalələr, yüzlərlə mineral və müalicəvi bulaqlar, narın qumlu dəniz çimərlikləri, palçıq vulkanları, tarixi-mədəni abidələr və s. ölkədə daxili və xarici turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Nəqliyyat xidmətlərinin, yolların və s. infrastrukturun inkişafı turizmin dirçəlişinə təkan verir. O cümlədən, bu gün Azərbaycanın ən ucqar kəndlərinədək rahat yolların çəkilməsi, ölkəmizin Şərq-Qərb, Şimal-Cənub kimi iri beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi turizm sektorunun da inkişafına ciddi təsir göstərməkdədir.

Belə ki, həm ölkə daxilində, həm də beynəlxalq səviyyəli yolların yenidən qurulması, yeni yolların çəkilişi ölkənin Avropa və Asiya arasında yerləşən nəqliyyat qovşağı kimi əhəmiyyətini daha da yüksəldir. Azərbaycanın tranzit potensialı artdıqca isə ölkə ərazisindən tranzit kimi istifadə edən xarici daşıyıcıların sayı da çoxalır. Bu da turizmin inkişafında mühüm rol oynayır.

Bütün bunlarla yanaşı, son illər, regionlarda beynəlxalq standartlara cavab verən hava limanlarının tikintisi, bir çox yolların yenidən qurulması və rayonlarda yeni yol çəkilişləri bu sahəyə verilən ən gözəl töhfədir.

Məlumdur ki, turizmin inkişafında daxili turistlər də xüsusi rol oynayır. Xüsusən, ölkəmizdə kənd turizminin inkişafı əsasən daxili turistlərdən asılıdır. Belə ki, turizmin ekoloji turizm, dağ turizmi, idman turizmi və s. müxtəlif növləri içərisində kənd turizmi daha geniş yayılıb. Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi üçün çox geniş potensial imkanlar mövcuddur.

Hər bir ölkədə, xüsusilə də əhalisinin təqribən yarısı kənd yerlərində yaşayan Azərbaycan kimi ölkələrdə kənd turizminin inkişafı çox vacibdir. Çünki kənd turizmi şəhər mühitinin kənd mühiti ilə əvəz olunması ilə yanaşı, kənd yerlərində kiçik sahibkarlığın inkişafının, kənd təsərrüfatı məhsullarının istehlakçılara birbaşa çatdırılmasının təmin edilməsində, bölgələrin mövcud potensialından səmərəli istifadə olunmasında xüsusi əhəmiyyətə malikdir. Araşdırmalardan aydın olur ki, kənd turizmi ümumilikdə, milli park və təbiət ərazilərindən istifadəyə, insanların istirahət tələbatında ətraf mühitlə bağlılığa, mədəni və milli irs nümunələrindən, eləcə də tarixi memarlıq abidələrindən istifadəyə, yüksək keyfiyyətli yaylaq havasına və müalicəvi bulaq sularına daimi tələbatın olmasına əsaslanır .



Aydındır ki, kənd turizm mərkəzləri əsasən Quba, Qusar, Xaçmaz, Masallı, Şamaxı, Qəbələ, Şəki və s. rayonların ərazisində yerləşir. Lakin Tovuz, Şərur, Gədəbəy, Ordubad, Daşkəsən, Zaqatala, Lerik, Yardımlı, Qax, Lənkəran, Balakən, Neftçala və s. rayonlarda da böyük potensial var.

Daxili turistlərin ölkənin özündə turizmə cəlb edilməsi üçün mövcud potensialdan hələ də tam istifadə oluna bilmir. Əgər kənd turizmi inkişaf etdirilsə, xarici ölkələrə üz tutan turistlərin çoxu öz ölkəmizdə turizmdən istifadə edər.

Bu sektorda mövcud potensialdan səmərəli istifadə olunsa, ölkəmiz bu sahədən daha artıq gəlirlər əldə edər. Ona görə də, turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri kimi inkişaf etdirilməsi bu gün Azərbaycanda ən mühüm vəzifə olaraq qarşıda durmalıdır.

Digər sektorlardan fərqli olaraq turizm ekologiyaya zərər vurmayan, xammal və ya industrial texnologiya tələb etməyən, faydalı qazıntıların istaifadəsinə ehtiyac duymayan bir sektordur. Təsadüfi deyil ki, bir çox ölkələrin əsas gəlirləri məhz bu sektordan əldə olunur.

Azərbaycanda 2020-ci ilədək ölkəmizə 3 milyona yaxın turist gəlirdi. Gəlir 4,3 milyard dollar təşkil edirdi. Lakin 2020-ci ildə baş verən pandemiya bu sahəyə çox ciddi zərər vurdu. Ölkəmizin turizmdən gələn gəlirləri dəfələrlə azaldı.

Gürcüstan 2023-cü ildə turizmdən rekord həddə- 4,1 milyard dollar gəlir əldə edib. Azərbaycanın bundan daha çoxunu əldə etmək imkanı var. Lakin son 4 ildə quru sərhədlərinin bağlı qalması turizmin inkişafına xeyli zərər vurur. Ötən il turizmdən cəmi 1,4 milyard gəlir əldə edilib. Onun da çoxu daxili turistlərin hesabınadır.

Turizm məkanlarında qiymətlərin yüksəkliyi və xidmətlərin zəifliyi daxili turistlərin narazılığına səbəb olur və onların bir çox xarici ölkələrə üz tutur. Əgər bu problemlər aradan qaldırılsa, kənd turizminin inkişafına daha çox diqqət göstərilsə, qısa müddətdə bu sahədə böyük irəliləyiş əldə olunar. Nəticədə həm əhalinin, həm də dövlət büdcəsinin gəlirləri artar, ölkədən valyuta çıxışı azalar, ölkəyə valyuta axını çoxalar, bu, həm də məşğulluq probleminin həllinə böyük töhfə olar. Üstəlik, bu sahənin inkişafı dolayı yolla digər sahələrin də inkişafına təkan verər, regionlarda iqtisadi dövriyyəni artırar.

Kənd turizminin inkişafı özünüməşğulluğun artması və yüz minlərlə insanın özünü işlə təmin edərək gəlir əldə etməsi deməkdir. Dolayı yolla bu bir çox sahələrdə faydalıdır. Ona görə də bu istiqamətdə artıq ciddi işlərin həyata keçirilməsi vacibdir.

***Elçin Bayramlı***





# Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşası yeni quruluşda



*Azərbaycan Dövlət Akademik Musiqili Teatrın səhnəsində görkəmli dramaturq Sabit Rəhmanın "Əliquli evlənir" tamaşası hazırlanır. Tamaşanın libretto müəllifi, quruluşçu rejissoru və baş rolun ifaçısı xalq artisti, "Şöhrət" ordenli İlham Namiq Kamaldır. Sənətkarımızla görüşüb, tamaşa ilə bağlı söhbət etdik. Həmin müsahibəni dəyərli oxucularımızın diqqətinə çatdırırıq.*

## *Müsahibimiz xalq artisti, "Şöhrət" ordenli İlham Namiq Kamaldır*

**- İlham müəllim, necəsiniz, nə var, nə yox?**

- Çox sağ olun, yaxşıyam. Hər şey yaxşıdır. Yeni işlər, yeni tamaşalar və sair və ilaxır...

**- İlham müəllim, bildiyimizə görə, Akademik Musiqili Teatrda Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşasını hazırlayırsınız. Mümkünsə, oxucularımıza bu haqda məlumat verin.**



- Məmnuniyyətlə. Milli teatr tarixindən yaxşı bilirik ki, teatrlarımız Sabit Rəhmanın "Əliqulu Evlənir" komediyasına dəfələrlə müraciət edib. Bir çox sənətçilərimiz bu əsərdə özlərini sınayıblar. Görkəmli dramaturq Sabit Rəhmanın komediyaları Azərbaycan dramaturgiyasında özünəməxsus yerlərdən birini tutur. Maraqlısı odur ki, keçən əsrin 60-cı illərində yazılmış bu komediyalar bu gün də müasirliyi ilə diqqət çəkir. "Toy", "Xoşbəxtlik", "Yalan","Əliqulu evlənir" və digər komediyalar mövzu, ideya, konflikt və obrazların mükəmməlliyi ilə bu gün də maraq doğurur. Məhz bu səbəbdən, mən Sabit Rəhmanın "Əliqulu evlənir" komediyasını müasir düşüncə tərzinə yaxın hesab edərək, on bir il bundan əvvəl, əsərin librettosunu yazaraq, səhnədə hazırlamaq istədim. Tamaşanın hazırlanması gec də olsa, bu günlərdə mümkün oldu.

Yuxarıda qeyd olunduğu kimi, adı çəkilən komediya əsasında hazırlanan tamaşanın libretto müəllifi, rejissoru və baş rolun ifaçısı mən, bəstəkarı xalq artisti, mərhum bəstəkarımız Oqtay Rəcəbov, şeirlərin müəllifi, əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu, quruluşçu dirijoru Fəxrəddin Atayev, quruluşçu rəssamı Nabat Səmədova, quruluşçu baletmeysteri Vaqif Məstanov, konsert-meysteri Fidan Əliyevadır. Tamaşada rolları aşağıda adları çəkilən aktyorlar – Əliqulu - mən və İqrar Salamov, Gövhər - Zemfira Əbdülsəlimzadə (GTT-dan dəvət olunub) və Gülçöhrə Abdullayeva, Qumral - Gültac Əlili və Nərmin Əliyeva, Xəlil- Əliməmməd Novruzov, Kamal-Səmədzadə Xasıyev, Rəvşən-Əkbər Əlizadə, Nazlı-Gülnarə Əzizova, Humay-Rəsmiyyə Nurməmmədova, Səfər-İqrar Salamov və Ruslan Mürsəlov, Saadət-Nahidə Orucova, Azad- Ruslan Mürsəlov və Elçin İmanov ifa edəcəklər.

**-İlham müəllim, tamaşa haqqında nə deyə bilərsiniz?**

- Sabit Rəhmanın "Əliqulu evlənir" əsəri məişət komediyasıdır. Əsərin baş qəhrəmanı Əliqulu vəzifəpərəst və karyeristdir. O, kreslo, vəzifə və kabinet adlı sağalmaz xəstəliyə tutulub. Əsərin adından göründüyü kimi Əliqulu vəzifəyə görə, daha dəqiq desək, vəzifədə qalmasına görə, qoca yaşında evlənmək qərarına gəlib. Bu onun vəzifədə qalmaq üçün istifadə etdiyi sonuncu çıxış yoludur. Əliqulu vəzifə kreslosundan ayrılmasını ölümünə bərabər tutur. Tamaşa bu ideya üzərində qurulub.

Tamaşada Əliqulu və Səfər kimi vəzifə düşkünü olan mənfi obrazların əks qütbündə Əliqulunun həyat yoldaşı Gövhər, qardaşı Xəlil, qızı Qumral, onu sevən Kamal, Xəlilin ailə qurmaq istədiyi Xumar xanım, Rövşən ilə Nazlı, Azad ilə Səadət cütlüyü kimi işıqlı və müsbət obrazlar durur. Müasir və sağlam düşüncə tərzinə malik və əksəri gənclərdən ibarət olan bu insanlar Əliquluya və Səfərə qarşı mübarizə aparıb, onları doğru yola yönəltmək istəsələr də, heç bir müsbət nəticə əldə edə bilmirlər.

**- Əliqulu vəzifə düşkünlüyü ilə hamı üçün problemə çevrilib.**

- Bəli. Tamaşanın süjet xətti Əliqulu və Səfər kimi mənfi obrazlarla yuxarıda adları çəkilən müsbət obrazlar arasında olan konflikt üzərində qurulub. Əliqulu və Səfər, təbii ki bu mübarizədə məğlub olurlar.

**- Əliqulu vəzifə düşkünüdür...**

- Elədir ki, var. Əliqulunun vəzifə uğrunda apardığı mübarizəni kölgədə qoyan gənclərin-Kamal ilə Qumralın saf məhəbbətidir. Gənclərin saf məhəbbəti və quruculuq fəaliyyəti cəmiyyətin xoş gələcəyi və sabahı deməkdir. Sabah isə bu gündən başlanır. Sonda Kamal ilə Qumralın məhəbbəti qələbə çalır. Tamaşada digər obrazlar da həyat və fəaliyyətləri ilə cəmiyyətin inkişafına xidmət edirlər. Əsərdə gənclərin məhəbbəti ilə yanaşı yaşlı insanların da bir-birinə olan səmimi münasibətləri önəmli yer tutur. Xəlil dayı vəkil, Xumar xanım baxça müəlliməsidir. Onların ömürləri işdəgücdə keçdiyindən, cavan vaxtlarında ailə qurmaq haqqında düşünməyiblər. Amma yaşlı vaxtlarında təkliyə məhkum olmamaq üçün, gec də olsa ailə qurmaq haqqında düşünürlər. Onların məhəbbətləri bir qədər gecikib. Amma onlar da xoşbəxt olmağa layiqdirlər. Mənə elə gəlir ki, tamaşanın adı "Əliqulu evlənir" yox, "Məhəbbət dastanı" adlansa, daha düz olar. Əsərin sonunda Əliqulunun ailəsinin dağılması, bir növ gənclərə ibrət dərsidir. Gənclər anlayırlar ki, ailədə özünü elə aparmalısan ki, sonda ailən dağılmasın.

**- Tamaşa tamaşaçılara bir çox mesajlar verir.**

-Əlbəttə. Söz yox ki, bu gün də cəmiyyətimizdə vəzifəpərəstlər və digər mənfi xarakterli insanlar var. Onlar dövrümüzə uyğun geyimlərini dəyişsələr də məqsədləri və məramları dəyişməyib. Məhz bu səbəbdən librettoya müəyyən əlavələr edilib. Məqsədimiz tamaşaçılara özlərini göstərməkdir. Məsələn, tamaşada belə bir səhnə var. Hamı telefonla danışır. Biri problemlərini kiməsə demək istəyir. Amma yan-yörəyə baxıb, onu dinləyəcək adam tapa bilmir. Çünki, hamı mobil telefonla danışaraq, öz problemlərini həll edir. Müasir dövrümüzün ən böyük problemi budur. Hamı danışır, heç kim bir-birini eşitmək istəmir. Əsərə iki musiqiçi qadın obrazı da əlavə olunub. Onlar da tamaşada maraqla qarşılanır.

**-Bildiyimə görə, Sabit Rəhmanın "Əliqulu evlənir" əsərində bunlar yoxdir. Bunu yəqin ki, libretto əlavəsi hesab etməliyik.**

- Bəli. Bu və digərləri mənim əlavədir. Sadəcə olaraq, librettoya müəyyən əlavə etdik ki, dövrümüzə daha yaxın olsun. Əliqulu həm keşmiş, həm də müasir dövrün Əliqulusudur. Mən tamaşada Əliqulunun "kreslo xəstəliyi" ni daha qabarıq göstərmək üçün onun evində də kabinetindəki kreslonun eynisini təqdim etmişəm. Əliqulunun kreslosunda nə işdə, nə də evdə özündən başqa heç kim əyləşə bilməz. Mənim təxmini rejissor hesablamalarıma görə, onun kreslosu tamaşaçının düşüncəsində şikəst arabasını xatırlatmalıdır.

**- Vəzifə xəstəliyi, əslində elə şikəstlik deməkdir.**

- Elədir ki, var. Satirik gülüş hədəfinə çevrilən Əliqulu və Səfər obrazlarının bütün xarakterik cizgiləri tamaşa boyu qabarıq şəkildə üzə çıxmalıdır. Mən Əliqulu və Səfər obrazları vasitəsi ilə müxtəlif yollarla vəzifələrə soxulan, cəmiyyətin inkişafına mane olan və müasir dövrümüzdə də tez-tez rastlaşdığımız nadan və tüfeyli insanların ifşasına çalışmışam. Əliqulu tamaşa boyu bütün varlığı ilə müqavimət göstərərək, çarpışır, vuruşur, dediyiniz kimi, evli olduğu halda, məsul bir işçi ilə qohumluğa can atır. Qızı Qumralı, vəzifəsi olan meymuna belə ərə verməyə razıdır. Kreslo, vəzifə və kabinet onun yaşam tərzi, həyat amalıdır. İnsan yeməyə, yatmağa və sairə adət etdiyi kimi, Əliqulu da kresloya, vəzifəyə və kabinetə adət etmişdir. Tamaşada Əliqulunun həyatını vəzifədən üstün tutmağını onun xarici və daxili rəsminin vəhdətində, geyimində, davranışında, ətrafı ilə münasibətlərdə göstərməyə çalışmışam. Oxucuların yadına salım ki, əsərdə Əliqulunun xarici görünüşünün "remontdan əvvəl" və "remontdan sonrakı" rəsmi də obrazın xarakterik cizgilərinin açılışına xidmət edir.

**- Bu gün vəzəfəpərəst deyəndə, dərhal Əliqulu yada düşür.**

- Bəli. Müəllif əsərdə Əliqulunun vəzifəpərəstliyini, mənsəb düşkünlüyünü bədii mübaligə vasitələri ilə ifşa edirsə, mən də tamaşada obrazın mənəvi cılızlığını rəngarəng və qrotesk vasitələrlə qabarıqlaşdırmağa çalışmışam. Bunları onun geyimində, saç düzümündə, yerişində, üzünün ifadəsində və danışıq tərzində canlandırmaq istəmişəm. Əliqulu və onun kimi vəzifəpərəst məmurlar mənsəb uğrunda apardıqları mübarizələrində əvvəl gülüş, sonra isə ikrah hissi oyadırlar. Əliqulunun əsərdə daim təkrar etdiyi "Mən müdir olmaq, sədr olmaq, rəhbər olmaq üçün yaranmışam" deyimini tamaşa boyu əsas leytmativ olaraq qırmızı xətt kimi keçirməyə çalışmışam. Əliqulunun və digər obrazların əsərin ideya xəttinə və xarakterlərinə uyğun olaraq səhnədə təklif olunan vəziyyətlərdə dəqiq fiziki hərəkət-mizan toplusunun tapılmasına, rolların həm zahiri, həm də daxili rəsmlərinin vəhdətini məntiq və ardıcıllıqda göstərməyə çalışmışam.

**- Yaxın günlərdə maraqlı bir tamaşa ilə tamaşaçıları sevindirəcəyinizə əminəm.**

- İnşallah. Tamaşanın tərtibatında və obrazların təqdimində də müxtəlif təsvir vasitələrindən istifadə etmişəm. Tamaşada rəssam tərtibatı, geyimlər, musiqi, rejissura və obrazların təsviri arasında sıx vəhdət yaratmışam. "Əliqulu evlənir" tamaşasının teatrın repertuarında layıqli yer tutacağına və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanacağına inanıram.

- Mən də buna inanıram və çoxsaylı oxucularımızı yaxınlarda Azərbaycan Dövlət Akademik Musiqili Teatrın səhnəsində xalq artisti İlham Namiq Kamalın quruluşunda Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşasına dəvət edirəm.

***Müsahibəni apardı: teatrşünas, dramaturq Çingiz Ələsgərli***

# "Azərbaycan-Türkiyə təhsil əlaqələri hər il yüksələn xətt üzrə artır"

***"Azərbaycan-Türkiyə təhsil əlaqələri hər il yüksələn xətt üzrə artır. Xatırladım ki, Azərbaycan hələ Sovet dönəmi zamanından Türkiyə ilə ali təhsil sahəsində əlaqələr yaratmağa başlamışdır. Lakin bu əlaqələr mövcud dövrün siyasi tələblərinə uyğun aparılmış və müstəqil olmamışdır. Şübhəsiz ki, bu da iki qardaş xalqın milli maraqlarının təmin edilməsi istiqamətində çox mənfi hal olmuşdur.***



Amma müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycan Türkiyə ilə təhsil sahəsində əməkdaşlığa, daha böyük önəm vermişdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

O bildirib ki, 1992-ci ilin 16-23 may tarixində



**MÜNASİBƏT**

Ankarada türk dövlətlərinin təhsil bakanlarının toplantısı keçirildi və bu yığıncaqda təhsil sahəsindəki əməkdaşlıqdan, onun qarşısında duran problemlərdən bəhs edilmişdir: "Belə ki, bu toplantıda qardaş dövlətlərin təhsil işində bir-birlərinə yaxından kömək etməsi, təhsil ocaqlarının qarşılıqlı təşkili, bu işlərdə qarşıda duran problemlər və bu problemlərin birgə aradan qaldırılması və s. məsələlər geniş müzakirə edilərək lazımi qərarlar verilmişdir. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün sonrakı illərdə də siyasi və hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli tədbirlər həyata keçirilmişdir.



Son illərdə görünən işlərin nəticəsində Türkiyə tərəfinin yeni təlim texnologiyaları sahəsindəki bilik və bacarıqlarını Azərbaycan tərəfi ilə bölüşməyi, dərs vəsaitlərinin hazırlanmasında və müəllimlərin bu sahədə ixtisasartırmaları istiqamətlərində, həmçinin Azərbaycan tərəfinin Dünya Bankı və başqa beynəlxalq qurumlarla həyata keçirəcəyi layihə fəaliyyətlərinə hər cür texniki yardım göstərməsi olduqca müsbət haldır.

Bir məqamı qeyd edim ki, Türkiyənin Qazaxıstan və digər bir neçə ölkə ilə birgə universiteti fəaliyyət göstərir. Bütün sahələrdə Azərbaycanla qardaşlıq münasibətində olan dost ölkənin Azərbaycanla da ortaq ali təhsil müəssisəsi yaradılması çox mühüm hadisədir. Qeyd edim ki, hazırda Türkiyədə 35 min azərbaycanlı gənc ali təhsil alır. Digər tərəfdən isə Türkiyə universitetlərinin əksəriyyəti dünya reytinqində öncül yerlərdədir və məzunları müasir standartlara, əmək bazarının tələblərinə tam şəkildə uyğun gəlir. Ona görə də onların təcrübəsindən yararlanmağa böyük ehtiyac var. Mövcud qanunvericiliyə görə Azərbaycan və Türkiyə birgə universitet yarada bilər. Belə bir ali məktəbin yaradılması üçün iki ölkə arasında təhsil müqavilələri var, hətta bəyənnamə də imzalanıb, həmçinin Azərbaycan və Türkiyə arasında da kifayət qədər çox istiqamətli müqavilələr var. Azərbaycanın birgə universitet təsis etmək təcrübəsinin olduğunu xüsusi ilə qeyd etmək istəyirəm. Belə ki, hazırda Azərbaycan və Fransa birgə universiteti – UFAZ yaradılıb və fəaliyyət göstərir. Türkiyə və Azərbaycanda təhsil sahəsində islahatlar həyata keçirilir.

İnanıram ki, Azərbaycan-Türkiyə birgə ali məktəbin yaradılmasına dair bütün proses bu 2024-cü ildə başa çatacaq. Xarici ölkə universitetlərinin olması ölkədə ali təhsil müəssisələri arasında rəqabət mühitini də formalaşdıra bilər. Eyni zamanda xarici ölkə təcrübəsinin ölkəmizə gəlməsinə şərait yaradacaq. Digər tərəfdən Türkiyə universitetlərinin, özəl məktəblərinin əksəriyyəti dünya reytinqində öncül yerlərdədir. Məzunları müasir standartlara, əmək bazarının tələblərinə tam şəkildə uyğun gəlir. Ona görə də onların təcrübəsindən yararlanmağa böyük ehtiyac var.

Mövcud qanunvericiliyə görə, Azərbaycan və Türkiyə birgə universitet və orta məktəb yarada bilər. Belə bir ali məktəbin yaradılması üçün iki ölkə arasında təhsil müqavilələri olmalıdır və bu artıq var. Azərbaycanın birgə məktəb təsis etmək təcrübəsi var. Bakıda, "Ağ Şəhər" adlanan ərazidə Bakı Fransız Liseyi və UFAZ universiteti var. Bir neçə ölkə ilə birlikdə Azərbaycanda məktəblər yaradılıb. Seçinov adına Moskva Tibb Universitetinin, Lomonosof adına Moskva Beynəlxalq Universitetinin Azərbaycanda filialları var. Azərbaycan-Türkiyə birgə məktəbi ölkədə orta təhsil müəssisələri arasında rəqabət mühitini də formalaşdıra bilər. Eyni zamanda xarici ölkə təcrübəsinin ölkəmizə gəlməsinə şərait yaradar. Türkiyə Azərbaycan birgə Universiteti Azərbaycan Universitetləri arasında rəqabət mühitinin yaxşılaşdırılmasına təkan verəcəkdir".

***S.Hüseynli***

# Mitinq baş tutmadı, Əli Kərimli ilə xaricdəki antimilli ünsürlər arasında qarşıdurma başladı

***Dağıdıcı müxalif yığnağının aprelin 21-ə təyin etdikləri mitinqi təxirə salmalarından sonra müəyyən maraq doğuran məsələlər ortaya çıxıb. Xüsusilə də aydın olub ki, bu dil qəhrəmanları özlərinə inanmadıqlarından müəyyənləşdirdikləri aksiyanı təxirə salmağa məcbur olublar.***

Yəni Əli Kərimli, Cəmil Həsənli və digərləri şüurlu şəkil də dərk ediblər ki, aksiyaya maraq mövcud deyil, bu səbəbdən də mitinqə gələn olmayacaq. Ona görə də, xarici ağalarının qarşısında bir daha rüsvayçılıq yaşamamaq üçün mitinq şousunun vaxtını uzatmağa məcbur olublar. Hesab edirlər ki, müəyyən vaxt qazanmaqla məram və məqsədlərini anlamayan bir qrup insanla söhbətlər aparmaq, onlara şirnikləndirici vədlər verməklə mitinqə gələnlərin sayını artırmaq olar. Bütün bunlar bir daha onu təsdiq edir ki, dağıdıcı müxalif ünsürlərin tez-tez dilə gətirdikləri "demokratiya" anlayışı öz dayaz əxlaqları ilə ölçülür. Əli Kərimli və



ANALİZ

Cəmil Həsənli sosial şəbəkələr də hay-küy qaldırırlar ki, "hakimiyyət mitinqin müəyyənləşdirilən yer də keçirilməsinə icazə verməsə demokratiya təhlükəyə məruz qalmış olacaq". Fikir verin bu məxluqlar mitinqi "28 may" və "Nərimanov" metrostanisyalarının önün də keçirmək istəyirlər, hansı ki, həmin ərazilər Bakı şəhərinin mərkəzi əraziləridir. Həm də sözügedən ərazilərin önü insanların və avtomabillərin ən sıx hərəkət etdikləri ərazilərdir. Bu yerlər də mitinqin keçirilməsinə icazə verilməməklə demokratiya pozulacaqsa, vay belə demokratiyaya. Sual olunur, əgər Əli Kərimli və Cəmil Həsənli demokratik dəyərlərə belə hörmət edirlərsə, niyə o zaman şəhər sakinlərinin hərəkət etmək və ya istirahət hüquqlarını pozurlar?

## Ştatlı mitinqçilər də Ə.Kərimlinin və C.Həsənlinin məkrli planlarının icraçısı olmaq istəmirlər

Nəzərə almaq lazımdır ki, hər bir kəsin şəhərin istənilən küçə və meydanında hərəkət etmək və ya dükan, bazara alış veriş etmək, park və xiyabanlar da istirahət etmək hüququ var. C.Həsənli və Ə.Kərimli erməni lobbisinin sifarişi əsasında məhz mərkəzi küçə və meydanlar da mitinq keçirməyə cəhd etməklə insanların hüquq və azadlıqlarını kobud şəkil də pozmuş olur. Təbii ki, şəhər icra hakimiyyəti heç bir hal da iki-üç nəfər işbazın marağına görə, ümumi cəmiyyətin mənafeyinə zidd addım ata bilməz. Haqlı olaraq da atmır. Bakı şəhər icra hakimiyyəti mitinq keçirmək azarına düşən dağıdıcı müxalif ünsürlər hay-küy qaldırıb, populist xarakterli boşboğazlıqlar etmək üçün Qaradağ rayon stadionunu göstərir. Əgər ora getmək istəmirlərsə bu onları öz problemləridir. Başlıca problemləri təbii ki, sosial baza baxımında ciddi çatışmazlıqlar yaşamalıdır. Məhz bu amil səbəbindən yuxarıda da qeyd etdiyimiz kimi Ə.Kərmli və C.Həsənli aprelin 21-ə təyin etdikləri mitinqi mayın 5-ə keçirməyə məcbur olublar. Bu vaxtı qazanmaqla ətraflarına muzdulu mitinqçi toplaya biləcəklərini düşünürlər. Lakin bu da mümkünsüz görünür. Çünki artıq ştatlı mitinqçilər də Ə.Kərimlinin və C.Həsnlinin məkrli planlarının icraçısı olmaq istəmirlər. Başa düşürlər ki Ə.Kərimli və C.Həsənli xarici maraqlı dairələrdən milyonlar alsalar da onlara qəpik quruş verirlər. Ən pis hal da isə onların qanunsuz aksiya da iştirak etmələrinə görə, inzibatı cəza tətbiq olunması riski də var. Məhz bu və digər səbəblərdən dağıdıcı müxalifət ciddi problemlər qarşısında qalıb. Bu məqam da diqqət çəkən məsələ ondan ibarətdir ki, 21 aprel mitinqini təxirə saldıqlarına görə, xaricdəki antimilli ünsürlər Ə.Kərimlini ağ yuyub qara sərirlər.

## İnandırıcı deyil ki, bundan sonra Ə.Kərimli növbəti mitinq keçirmək xəyalına düşsün

Xaricdəki antimilli ünsürlər AXCP sədri Ə.Kərimlini xalqı aldatmaqda ittiham edirlər. "Azad söz" adlı internet kanalında Trol Sadıqlı açıq şəkil də bəyan edib ki, Ə.Kərmli 21 aprel mitinqini təxirə salmaqla qorxaqlığını göstərmiş oldu: "İnsanları aldadıb, sonra onları pis vəziyyətə qoymaq, utancverici haldır, Ə.Kərimli ciddi yanlışlığa yol verdi və bu yanlışlıq bağışlanmazdır". Trol Sadılının hədəsi onu deməyə əsas verir ki, xaricdəki antimilli ünsürlər Ə.Kərmli ilə əlaqəni kəsəcəklər. Yəni onunla əməkdaşlıqdan imtina edəcəklər. Əli Kərimli ətrafındakı Fuad Qəhrəmanlı, Gültəkin Hacıbəyli, İlham Hüseyn, Seymur Həzi və bu kimi digər trolların xaricdəki antimilli şəbəkəyə qarşı ittihamlar irəli sürmələri onu göstərir ki, artıq tərəflər arasında qarşıdurma yaranıb. Bundan sonra səngərlər qazılacaq və tərəflər bir-birinə qarşı ən sərt formada ittihamlar, söyüş və təhqirlər səsləndirməyə başlayacaqlar. Bu fakt həm də hər iki antimilli qrupun maraq savaşının, qrant və qonorar uğrunda döyüşünün və cılız mahiyyətinin növbəti təsdiqidir. Nəzərə almaq lazımdır ki, Əli Kərimli ilə ABŞ-da veyl həyat tərzi yaşayan Sevinc Osmanqızı arasında münasibətlər ciddi qarşıdurma vəziyyətindədir. Deməli S.Osmanqızı Avropadakı antimilli ünsürlərlə gücünü birləşdirməklə Ə.Kərimlini siyasətə gəlməsinə peşman edəcəklər. Bütün hallar da görünən ondan ibarətdir ki, dağıdıcı müxalifətin 21 aprel mitinqinin iflasa uğraması Ə.Kərmlinin onsuzda ağır olan vəziyyətinin dah da ağırlaşmasına gətirib çıxarıb. İnandırıcı deyil ki, bundan sonra toparlanan Ə.Kərmli növbəti mitinq keçirmək xəyalına düşsün. Bu baxımdan əminliklə demək olar ki, Milli Şura mayın 5-ə planlaşdırdığı mitinqini müəyyən bəhanə gətirməklə təxirə salacaq.

***İLHAM ƏLİYEV***

# Zülfüqar Hacıbəyli – 140



*Tarixin keşməkeşli, zolaqlı yolları insan taleyini, insan iradəsini sınağa çəkir, onun cığır açdığı yollar bir insan ömrünü neçə-neçə ömürlərə calayıb, onlara mənəvi ruh, qida verir. Belə insanlar tarixə nurdan yaranmış simalar kimi daxil olur. Varlığı ilə nur olan, seçdiyi sənət yolunda yorulmaq bilmədən çalışan insanlar zamanın mühakiməsində şəxsiyyət kimi görünürlər. Azərbaycan mədəniyyətinin böyük simaları kimi tanıdığımız və milli mədəniyyət və incəsənətəmizə böyük töhfələr vermiş sənətkarlar sənət tariximizdə əbədiyyətə qovuşub və onların yaradıcılıq irsi zaman məsafəsində yüksək qiymətləndirilir.*

Milli mədəniyyətimizə göstərilən diqqətin nəticəsi olaraq onların sənət qalereyası nəsildən-nəsilə ötürülür. Belə simaların fəaliyyəti və istedadı dövlət tərəfindən yüksək qiymətləndirilərək fəxri adlara, mükafatlara layiq görülürlər. Azərbaycan tarixində böyük bir şəcərənin daşıdığı soyad xalqımızın qan yaddaşına daxil olub, əməl və fəaliyyətləri ilə şəxsiyyət olaraq qəbul ediliblər. Bu, Hacıbəylilər şəcərəsidir.

Qarabağ bölgəsində yerləşən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ölkəmizin ən mühüm şəhərlərindən biri olmuşdur.

Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəlləri yaranıb. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. Bu tarixi şəhərdə məşhur şəcərələr, nəsillər yetişmiş, əməlləri, istedadları ilə silinməz salnamələrə həkk olundular. Şuşanın məşhur nəsillərindən olan Hacıbəylilərin fəaliyyəti bu şəhərin ictimai-mədəni həyatında silinməz iz salmışdılar. Hacıbəylilərin ulu babası Molla Hacı bəy Qarabağlı olmuşdur. O, Şuşa şəhərində sayılıb-seçilən, savadlı bir alim idi. Məhəllələrin dini işləri ilə məşğul olurdu. Molla Hacı bəyin Məhəmməd bəy adlı oğlu var idi. Qızı Bəşirət xanım Nəsib bəy Yusifbəylinin nənəsidir. Məhəmməd bəy 1814-cü ildə Şuşada anadan olmuşdu. O, mədrəsə təhsili almış və Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin hərəmi Bikə ağanın sarayında mirzə işləmişdi. Məhəmməd bəy göstərdiyi xidmətlərinə görə xan Vərəndə mahalının İsfəhançıq kəndinin bir hissəsini ona bağışlamışdı. Molla Məhəmməd bəyin Qəhrəman bəy, Əbdüləziz bəy, Əbdülhüseyn bəy və Hacı bəy adlı oğulları vardı. Molla Hacı bəyin törəmələri Hacıbəyli soyadını daşıyırlar. Hacıbəylilər şəcərəsinin ictimai-mədəni həyatımızda rolu müstəsnadır. Əbdülhüseyn bəy Hacıbəyli, İsmayıl bəy Hacıbəyli, Zülfüqar Hacıbəyli, Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Soltan Hacıbəyli, Niyazi Tağızadə-Hacıbəyli və başqaları öz fəaliyyətləri ilə tanınaraq, seçilmişdilər.

### MUSIQILI TEATRIN YARANMASI UĞRUNDA MÜBARİZƏ

XX əsrin ilk illəri Azərbaycan musiqi sənəti üçün intibah və inkişaf dövrüdür. O illərin zəngin sənət tarixi neçə-neçə onilliklər i belə əvəzlədi. Həmin dövrdə Bakının musiqi həyatı qaynar olsa da, ictimai-siyasi hadisələrin gedişatı müxtəlif maneələrin yaşamasına gətirib çıxarmışdır. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının tamaşaya qoyulması Azərbaycanın musiqi həyatına xüsusi bir yenilik gətirdi. Bu, nəinki Azərbaycanda, bütün Yaxın Şərqdə ilk opera idi və bu opera ilə yeni sənətin möhtəşəm özülü qoyuldu. Üzeyir Hacıbəyli ilə yanaşı, qardaşı Zülfüqar Hacıbəyli də əsrimizin ilk illərindən başlayaraq, Azərbaycan musiqili teatrının yaranması uğrunda mübarizəyə qoşulmuş, məhz onun müstəqil bəstəkarlıq fəaliyyətinin ilk təcrübələri də həmin dövrlə bağlıdır.

Onun tərcümeyi-halından oxuyuruq. Zülfüqar Hacıbəyli 1884-cü ildə Şuşa şəhərində anadan olub. Uşaqlıq illəri bu ecazkar musiqi beşiyində keçib. Erkən yaşlarından şəhərin musiqi məclislərində iştirak edib, istedadlı xanəndələrin ifasında xalq mahnılarını dinləyib. Demək olar ki, şəhərin mədəni ab-havasının ona gələcək həyat yolunu müəyyən etməkdə xeyli təsiri olub. Gənc yaşlarından musiqiyə əbədi bağlanan Zülfüqar Hacıbəyli ilk biliyini xalq musiqisindən alıb. O dövrdə, yəni XX əsrin əvvəllərində opera və operetta yazmaq Azərbaycan musiqisində yenilik idi. Onun yaratdığı-bəstələdiyi əsərlərdən biri "Aşıq Qərib" operasıdır. O vaxt bu əsər ictimai-mədəni həyatda böyük marağa səbəb olur. Əsərin səciyyəviliyi onda idi ki, opera xalq musiqisi ilə Avropa musiqisinin sintezini özündə əks etdirirdi. Həmin dövrdə Zülfüqar Hacıbəyli bir sıra librettolara musiqi yazır.

### AZƏRBAYCANIN MƏDƏNİ-TƏRƏQQİSİNİN İNKİŞAFINA TÖHFƏ

Sənət tariximizdə onun "50 yaşında cavan" (1910), "Varlı" (1911), "Evliykən subay" (1916) musiqili komediyaları bu gün də sənət dünyamızın bəzəyidir. Zülfüqar Hacıbəyli 1935-ci ildə "Almaz" filminə musiqi yazır. Məlumdur ki, bu film kino tariximizdə ilk səsli filmdir. Bu ərəfədə yazdığı "Kölə qadınların rəqsi" adlı simfonik əsəri ona böyük şöhrət gətirir. Onun daha iki – "Nüşabə" və "Üç aşıq" operası isə tamamlanmamış qalır. Yaradıcılığa mahnı janrı ilə başlayan Zülfüqar Hacıbəyli XX əsrin 20-30-cu illərində çox məşhurlaşır. Bəstələdiyi nəğmələri – "Kəndçi qızı", " "Çoban qız", "Əsgər nəğməsi" və digər mahnıları dildə-ağızda dolaşır. Onun yaradıcılığı rəngarəngdir. Milli musiqi xəzinəmizə bəxş etdiyi töhfələr çoxdur. İstedadlı bəstəkarın əsərlərinin hər birini ayrı-ayrılıqda sənət məbədimizin qızıl kərpici hesab etmək olar.

Qeyd edək ki, 1911-ci ildə Üzeyir bəy və Zülfüqar bəy Hacıbəylilərin rəhbərliyi ilə opera-operetta artistləri truppası yarandı. O dövrün bir sıra məşhur artistləri truppanın tərkibinə daxil olmuş, Bakıda Qafqazın başqa şəhərlərində tamaşalar göstərmişlər. Truppanın qastrol səfərlərində repertuarı Ü.Hacıbəylinin «Leyli və Məcnun», «Əsli və Kərəm» operaları, «Ər və arvad», «O olmasın, bu olsun» musiqili komediyaları, Z.Hacıbəylinin «Aşıq Qərib» operası, «Evliykən subay» musiqili komediyasından ibarət idi.Bəstəkarın M.Füzuli adına Azərbaycan Əlyazmalar Fondunda saxlanılan şəxsi arxivində əldə olunan materiallar onun zəngin irsi ilə tanışlıq yaradır. Belə ki, "Onda elə, indi belə", "Yarış" operettaları "Mən ağlaram, o gülər" komediyası, "Biçarə Xavər", "Məşədi Xudu" operettaları, "Məlikməmməd", "Nüşabə" operaları və s. musiqili komediya, opera librettosu, musiqi qeydləri ilə yanaşı, bəstəkarın bir neçə məqaləsi də saxlanılır. Bu əsərlərlə tanışlıq Azərbaycanın mədəni-tərəqqisinin hər zaman inkişafda olduğunu göstərən faktdır.

### YAZIB BAŞA ÇATDIRA BİLMƏDİYİ ÇOXSAYI ƏSƏRLƏR

Milli mədəniyyət tariximizdə - opera sənətinin, eyni zamanda, musiqi teatrının təşkili və inkişafında xidmətləri olan sənət adamları sırasında göründüyü kimi Zülfüqar Hacıbəylinin öz imzası var. Ümumilikdə isə, sənətin inkişafında Hacıbəylilər ailəsi pozulmaz səhifələr yazıb. Zülfüqar Hacıbəylinin da musiqi teatrımızın inkişafı yolunda yazıb-yaratdıqları əsərlər əsil fədakarlıqdır.

Təəssüf hissi ilə qeyd edək ki, o dövrdə - 1937-ci il repressiyasının acı yelləri Hacıbəylilər nəslindən də yan keçmir. Bu görkəmli nəslin gözəl yadigarları doğma yurd-yuvalarından pərən-pərən düşür. Bəziləri mühacirət edir, ömürlərini qürbətdə başa vururlar. Çox keçmir ki, İkinci Dünya müharibəsi başlayır. Müharibə acı rüzgarın səmtini dəyişir. Ölkədə vətənpərvərlərə, milli təəssübkeşlərə qarşı bir az yumşalma hiss olunur. Lakin 37-ci ilin ab-havası, yəni qorxusu tam çəkilməmişdi. Buna baxmayaraq, Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları qarşılaşdıqları ədalətsizliklərə, ziddiyyətli münasibətlərə mətanətlə sinə gərirlər. Böyük dözümlülük göstərərək milli musiqimizin inkişafında əllərindən gələni əsirgəmirlər. Həqiqətən də, onların yazdıqları bir çox əsərlər dövrün təqiblərinə, qadağalarına məruz qalır, illərlə arxivlərdə saxlanılır. Ancaq sonda haqq-ədalət öz yerini tutur - hər iki bəstəkar qardaşın xidmətləri qiymətləndirilir. Zülfüqar Hacıbəyli milli musiqimizin inkişafı yolunda göstərdiyi xidmətlərə görə, 1943-cü ildə əməkdar incəsənət xadimi adına layiq görülür.Musiqili Komediya Teatrının əsasını qoyan görkəmli sənət xadimlərindən biri kimi Zülfüqar Hacıbəyli respublikanın ictimai-mədəni həyatında da fəallıq göstərib. Bu sahədə olduqca çox çalışıb. Lakin yazıb başa çatdıra bilmədiyi çoxlu sayda əsərləri qalıb. Arxivdə müxtəlif janrda yazdığı yarımçıq qalmış əsərləri var. O, 1950-ci ilin payızında dünyasını dəyişir. Ancaq Zülfüqar Hacıbəylinin adı Azərbaycan musiqi mədəniyyəti tarixində həmişəlik qalır.

***Zümrüd BAYRAMOVA***

## Virtual aləmdə müəllif hüquqları necə qorunur?



***"Virtual aləmdə müəllif hüquqları "Müəlliflik hüququ və əlaqəli hüquqlar" haqqında Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vəkil Turan Abdullazadə deyib.***

O bildirib ki, həmin qanuna əsasən, ədəbi və audiovizual əsərlər, heykəltəraşlıq, rəngkarlıq, qrafika, dizayn, litoqrafiya əsərləri, qrafik hekayələr, komikslər və digər təsviri sənət əsərləri; fotoqrafiya əsərləri və ona oxşar üsulla yaradılmış əsərlər müəlliflik hüququnun obyektidir. Kompüter proqramları ədəbi əsərlər kimi qorunur. Əsəri yaradan şəxs onun müəllifi sayılır. Əsərə müəlliflik, digər sübutlar yoxdursa, adı altında açıqlanmış şəxsə məxsusdur.

Müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri, habelə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum və əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar müəlliflik hüquqlarını və əlaqəli hüquqları pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək hüququna malikdirlər. Müəlliflik hüququnun və əlaqəli hüquqların sahibləri öz hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət edə bilərlər. Məhkəmə müəllifllik hüququ və əlaqəli hüquqlar ilə əlaqədar mübahisələrə baxarkən mülki-hüquqi müdafiənin ümumi vasitələrindən başqa iddiaçının tələbi ilə aşağıdakılar barədə qərar qəbul edə bilər:

**1)** zərərin ödənilməsi əvəzinə pozuntuya yol verən şəxsdən müəlliflik hüququnun və əlaqəli hüquqların pozulması nəticəsində əldə etdiyi gəlirin tutulması;

**2)** zərərin ödənilməsi və

### VƏKİL MÜNASİBƏT BİLDİRDİ

ya gəlirin tutulması əvəzinə 110 manatdan 55 min manatadək məbləğdə kompensasiya ödənilməsi;

**3)** hüquq pozuntusunun ağırlıq dərəcəsi və digər şəxslərin qanuni maraqları nəzərə alınmaqla məhkəmə qərarına əsasən pirat nüsxələrin surətinin çıxarılması (istehsalı) üçün istifadə edilmiş material və avadanlıqların müsadirə olunması;

**4)** pirat nüsxələrin hüquqları pozan tərəfə heç bir kompensasiya ödənilmədən məhkəmə qaydasında müsadirə olunması və ya məhv edilməsi".

"Bu Qanunla nəzərdə tutulmuş müəlliflik hüququnun və əlaqəli hüquqların pozulmasına görə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun mülki, inzibati və cinayət məsuliyyəti nəzərdə tutulur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 165.1-ci maddəsinə əsasən, müəlliflik hüququ və ya əlaqəli hüquq obyektlərindən qanunsuz istifadə etmə, yəni özgənin elmi, ədəbi, bədii və ya başqa əsərini öz adı ilə nəşr etdirmə və ya özgənin müəllifliyini başqa cür mənimsəmə, bu cür əsəri qanunsuz olaraq yenidən dərc etmə və ya yayma, habelə şərikli müəllifliyə məcbur etmə, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa— min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır. Bu maddədə "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# ”COP29-da 60 mindən çox adamın iştirak edəcəyi proqnozlaşdırılır”

***"COP29 indiyə qədər Azərbaycanın təşkil etdiyi və ölkədə keçirilən ən böyük, ən izdihamlı tədbir olacaq". Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib.***



MÜNASİBƏT

O bildirib ki, bu tədbirdə 60 mindən çox adamın iştirak edəcəyi proqnozlaşdırılır: ”Bu tədbirin keçirilməsi ölkəmiz üçün olduqca böyük hadisədir. Birinci növbədə COP29 BMT-nin İqlim Dəyişikliyi üzrə xüsusi layihəsi, xüsusi komissiyasının təşkil etdiyi dünyada ekologiyanın qorunması, istiləşmənin qarşısının alınması, karbonun havada azalması və yaşıl enerjiyə yaşıl işıq yandırması, təbiətin mühafizəsi ilə bağlı, insan sağlamlığının qorunmasına xidmət edən tədbirdir. İndiyə qədər 28 tədbir keçirilib. Sonuncu tədbir Dubayda keçirilmişdi. Azərbaycanda keçirilən tədbir də 29-cu tədbirdir. Rəqəm bu tədbirlərin sayını göstərir.

Bu tədbirin ölkəmiz üçün olduqca böyük əhəmiyyəti var. Birinci növbədə Azərbaycanı dünya miqyasında tanıtmaq üçün Azərbaycanın gücünün, nüfuzunun, ölkədə görülən işlərin, aparılan layihələrin və perspektivlərin dünya, bəşəriyyətə çatdırmaq üçün olduqca vacib hadisədir. Digər tərəfdən təbiətin mühafizəsi sahəsində Azərbaycan da bir neft ölkəsi olaraq öz töhfəsini verdiyini dünyaya göstərməlidir. Çünki neft ölkələrinin çoxunu ittiham edirlər ki, torpağı korlayırlar, neft sıxıntıları, yaxud tullantıları ilə, radioaktivlik yüksəlir və sair. Eyni zamanda neft və qazdan enerjinin alınması prosesində havaya çoxlu karbon qazı buraxılır. Bu da təbiətin ziyanına işləyir. Belə olan halda Azərbaycanın belə bir tədbiri keçirməsi bir daha göstərəcək ki, Azərbaycan neft və qaz ölkəsi olmasına baxmayaraq həm ətraf mühitin mühafizəsi, həm təbiətin qorunması, həm havanın, torpağın çirklənməsindən mühafizəsi Azərbaycan tərəfindən yüksək səviyyədə həyata keçirilir”.






”Digər tərəfdən ölkəmizin beynəlxalq aləmdə daha güclü tərəfdaş kimi tanınmasına olduqca böyük dəstək verəcəkdir. COP29-da demək olar ki, dünyanın bütün ölkələrinin nümayəndələri iştirak edəcəklər. Ölkə rəhbərləri səviyyəsində təmsilçiliklər olacaqdır. Bu həm də bölgədə indiki zamanda mürəkkəb hərbi-siyasi zamanda Azərbaycanın nə qədər əhəmiyyətli olduğunu dünyaya göstərəcək. İqtisadi cəhətdən də gələcək üçün böyük perspektivlər vəd edən tədbirdir. COP29-da iştirak edən ölkələr, o ölkələrin biznes adamları, ölkənin müvafiq dövlət və hökumət qurumları öz aralarında, Azərbaycanla müqavilələr bağlaya bilərlər. Azərbaycanın biznes və turistik əhəmiyyətini artıran tədbirdir. Tədbirə gələcək 60 mindən çox qonağın hər biri Azərbaycandan xoş təəssüratla gedəcəksə, Azərbaycanın mədəniyyətini, mətbəxini, tarixini tanıyaraq öz ölkələrində də təbliğ etmək imkanları yaranacaq.

Azərbaycanın ən böyük qarşıdakı perspektivlərindən biri Qarabağı və Şərqi Zəngəzuru sürətlə bərpa etmək, orada ekoloji təmiz həyatı qurmaq, xüsusilə, ”ağıllı kənd”, ”ağıllı şəhər” layihələri həyata keçirməkdir. Yaşıl artım ölkəsinə çevirməklə bölgə və ölkəmiz üçün COP29-dan alınan nəticələrin də böyük əhəmiyyəti olacaqdır. Azərbaycanın sürətli inkişafı, bu inkişaf fonunda həm də təbiəti, ekologiyanı qorumaq niyyətlərinin nə qədər real olduğu dünya ictimaiyyətinə çatdırılacaqdır” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



# Soğan tək soyulasınız...

***Bəzən yazırıq, üstəgəl qınayırıq da ki, nə üçün, camaat üz tutur şəhərlərə, kəndlər boşalır, qapılar qıfıllı, yurdlar kimsəsiz qalır... Hələ yeri gələndə kəndlərdən köçənlərə ağıl da veririk ki, niyə köçürsən şəhərə, otur yerində, torpağını ək, biç, məhsulunu götür, illik ruzini qazan, artıq qalanını da çıxar bazara. Sat, sov, gəlir əldə et. Nə işin var axı şəhərdə?***

FELYETON

Bu “ağılları” dinləməyən, deyir, gedin öz işinizlə məşğul olun, məsləhətinizi də özünüzə saxlayın. Eşidən, dinləyən isə oturur yerində, başlayır, əkib-biçməyə. Kəndin də işini bilməyən yoxdur. Kəndli, yazıq, qara yazdan başlayır torpaqla əlləşməyə-vuruşmağa. Nə bilim, altını üstünə, üstünü altına çevirir. Sübhün gözü açılmamış beli, dırmığı, şanası çiynində üz tutur dirrik yerinə. Tər axıdır, günün altında mis rəngini alır, qonşu ilə su üstündə qırğına çıxır, su növbəsi çatanda gecəni sahədə keçirir, bəzən bir kölgəlik olmur ki, bir tikə çörəyini orada yesin, onu da gün başına döyə-döyə yeyir. Nə isə ki, əkir-becərir. Məsələn, Tovuz rayonunun Aşağı Mülkülü kəndinin sakinləri kimi. Camaatın tonlarla soğanı həyətlərdə qalıb, dəridən-qabıqdan çıxıb ərsəyə gətirdikləri məhsulun yenə ötən il bir kiloqramını 30-40 qəpiyə satıblar ki, bu il heç 20-25 qəpiyə də sata bilmirlər.

Bu dəllallar ki, var, kəndlidən məhsulu ucuzdan ucuz alır, gətirib bazar və marketlərdə od qiymətinə satırlar. Budur, kəndli sahibkarların hər birinin 50-200 ton arası məhsulu məhv olmaq üzrədir. Kəndli deyir ki, soğanın alış üçün təklif olunan qiyməti heç məhsulun yetişməsi üçün sərf olunan vəsaiti belə ödəmir. Burada deyirlər bax, sən soğan kimi soyula-soyula məhsul yetişdirəsən, o da qalıb xarab ola. İndi kəndli dəllallara “sizi soğan qabığı kimi soyulasınız”,- deyə qarğış etməsin, necə etməsin? O dəllallara ki, nə qədər nəzarət edən, gözünün üstündə qaşın var deyən yoxdur, bunlar əqidəsindən dönən deyil.

Kənddə ki, kəndlinin əsas məşğuliyyəti əkinçilikdir, o da əkdiyinin bəhrəsinə baxdıqca ürəyi soyulursa, onun şəhər seçiminə kim nə deyə bilər? Yazıq kəndli əkir, sonra da məhsulunu satmağa adam tapmır, məhsul da xarab olub əlindən çıxırsa, kənddə niyə otursun? İndi agah oldu ki, kəndli niyə kəndi tərk edir? Gəl onu kənddə saxla, görüm, necə saxlayırsan. Yerindən qalxan üz tutacaq şəhərə. Deyəcək ki, burada soğan kimi soyulmaqdansa, elə gedib Bakıda ictimai nəqliyyatda, metroda basa-basa düşüb soyularam da. Və yaxud da şəhərin bu başından o başına getmək üçün saatlarla günün altında soğan kimi cızdağım çıxar da...

Bu köçdən, əlbəttə, dəllallar qorxsun. Qorxsun ki, onların əlindən hamı daşdana gələ şəhərə, kəndlərdə bir nəfər qalmaya ki, soğandan-kartofdan əkə. Görəsən belə olarsa, dəllallar nə edər? Nə edəcəklər? Bu dəfə də kəndli kimi onların cızdağı çıxar, ağılları başlarına gələr...

***Mətanət Məmmədova***



# Qadınlığa hörmət et, QADIN!

Mətanət Məmmədova

***Azərbaycan qadını hər zaman geyim-keçimi, oturu-şu-duruşu, hərəkətləri, danışığı ilə nümunə olub. Oğlunun, qızının, qohum-qonşunun məsləhətkeşi, yol göstərəni olub. Biz nənələrimizin tövsiyəsi ilə boya-başa çatmışıq, cəmiyyətdə mövqeyimizi tutmuşuq. Tərbiyə etdiyimiz övladlarımız başımızı uca edib, hərəkətləri, danışıqları ilə nümunə olublar.***

Azərbaycan qadını zamanında kişilərin yanında ağzının yaşmağını gözlərinə qədər çəkib. İsməti, iffəti, namusu, arı, həyası ilə hər vaxt nümunə olub. Qonşunun yolunu gözləyib, qohumun yanında ləyaqəti ilə hörmət qazanıb. Qayınatasının yanında yemək yeməyib, uşağını qucağına almayıb. Qayınanasının yolunu gözləyib, deyilən hər sözü böyüdüb probleme çevirməyib.

Azərbaycan qadınının günlərlə saya biləcəyimiz bu qədər dəyərli keyfiyyətləri fonunda müasir dövrümüzdə elə qadınlarla qarşılaşmaq olur ki, sözün həqiqi mənasında, adam xəcalət çəkir. Məsələn, geyimindən xəcalət çəkdiyimiz bəzi qadınlar... Ətrafdakı insanların ona baxışını sanki öz üzərində hiss edir və düşünürsən ki, o baxışların nə ifadə etdiyi sənə də aiddir. Bəli, başqa cür ola da bilməz, çünki sən də qadınsan.

Məsələ tək geyim olsa, dərd də yarı olar. Son vaxtlar bəzi qadınlarımız nəinki geyimini bilmir, hətta ictimai yerlərdə nə danışdığının belə fərqində deyillər. Sanki düşünmürlər ki, kənardan bütün diqqətlər onların üzərindədir, geyimlərindən, oturub-durmalarından, hərəkətlərindən tutmuş danışıqlarınadək hər biri kənardan müşahidə olunur və qiymət verilir. Belə isə onlar nə üçün qadınlıq adına hörmət etmək istəmirlər?

Bəzi televiziyalarda bəzi qadın aparıcıların isə geyimlərindəki kimi, danışıqlarında da xoşagəlməyən nüanslar var. Bu xanımlar düşünürlər ki, efirdən hər sözü söyləmək olar, studiyaya gələn qonaqla istədiyi kimi danışmaq, ona irad bildirmək olar. Lakin anlamaq istəmirlər ki, həmin qonaq onun nə övladıdır, nə də tənbeh edə biləcəyi yaxın qohumu.

Beləliklə çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, müasir cəmiyyətimizdə Azərbaycan qadınının, əsl azərbaycanlı xanımın gözəl keyfiyyətlərinə xələl gətirən qadınlar var. Lakin bu qadınlar oturub danışdıqları söz, hərəkətləri və geyimləri haqqında ətraflı düşünməlidirlər. Bunu etməyə borcludurlar. Çünki bir azərbaycanlı qadın olaraq necə geyinəcəklərinə cavabdehdirlər. Bir azərbaycanlı qadın olaraq cəmiyyət içində necə danışmalı olduqlarını bilməlidirlər. Azərbaycanda ailə dəyərlərini zaman-zaman qoruyub dövrümüzədək gətirib çıxarmışıqsa, heç kimin bu dəyərləri dəyərdən salan sözlər söyləməyə haqqı yoxdur.

Qaldı bəzi aparıcı xanımlarımıza, onlar da ağızlarından çıxan sözləri götür-qoy edib, ölçüb-biçsələr, geyimlərinə fikir versələr, əla olar. Beləliklə biz ümumilikdə azərbaycanlı xanımların dəyərinin qədrini bilmiş və ona hörmət etmiş olarıq. Bunu unutmayaq. Bir də “qadınlığa hörmət et, qadın” tövsiyəsini hər an xatırlayaq.

# "Milli Şura Azərbaycanın uğurlarına kölgə sala bilməz"

***"Dünya hal-hazırda növbəti dəfə böyük qlobal müharibənin astanasındadır". Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib.***

Deputat bildirib ki, regional konfliktlərin qloballaşma şəraitində zəncirvari reaksiya şəklində bir-birinə təsir göstərməsi və ertələnmiş siyasi düyünlərin açılmağa başlaması böyük geosiyasi təhdidlər yaradır: "Bu konteksdə insan amili çox mühüm rola malikdir. Çünki, xalqlar, müxtəlif qruplar bu böyük təhdidin fərqində olaraq dövlətlərinin mümkün dərəcə az təsirlə bu proseslərdən keçməsi üçün əlindən gələni edir. Digər qisim isə var ki, dövlətin, xalqın regional və qlobal proseslər səbəbilə içində olduğu çətinlikləri siyasi ambisiyaya çevirərək, ölkə xarici qrupların maraqları naminə addımlar atmağa səy göstərir.

Ölkəmiz Qarabağda möhtəşəm zəfərin ardından yeni geosiyasi hədəflər formalaşdırmaqdadır və bu konteksdə "Böyük Qayıdış" prosesinin tam sürətlə davam etdirilməsi, işğaldan azad edilmiş torpaqlarımızın siyasi, iqtisadi, sosial, mədəni baxımdan ölkə həyatına inteqrasiyası, minalanmış ərazilərin təmizlənməsi, eynilə iqtisadi layihələrin çox şaxəliliyi, yaşıl enerjiyə keçid istiqamətində atılan addımlar nəinki Azərbaycanın daxili auditoriyası, eləcə də bir çox dövlət, beynəlxalq təşkilat tərəfindən Azərbaycanın öz potensialını rellaşdırmasının mümkün nəticələri olaraq qəbul edilir. Çox təəssüflər olsun ki, xüsusilə də hazırki şəraitdə, hər bir Azərbaycanlı ardıcıl zəfərlərimizin yaratdığı fəxarət hissini bütün varlığı ilə daşıyarkən, bəziləri bu qələbəmizə kölgə sala bilmək üçün əlindən gələni edir. Maraqlıdır ki, Azərbaycanda radikal müxalifətin şüarları ilə Azərbaycana qarşı mənfi rəy yaratmağa çalışan xarici mərkəzlərin əsassız ittihamları arasında fikir bənzərliyi var. Bunun özü belə bir daha təsdiq edir ki, bu kimi şüarlar xaricdən sifarişlənməklə, məqsədi hazırda Prezident cənab İlham Əliyev rəhbərliyində özünün zirvəsində olan lider-ordu-xalq birliyinə zərər vurmaq və onun güclənməsinə mane yaratmaqdır.

Azərbaycan hökuməti hazırda ölkənin həm bütün sahələrdə, xüsusilə də prioritet mövzularda irəliləməsi üçün effort sərf edir, diplomatik traffik demək olar ki bütün sahələrdə özünü göstərir. Eyni zamanda, üzləşdiyimiz bir sıra problemlərin həlli üçün presedenti olmayan addımlar atılır. Azərbaycan özünün



dövlət müstəqilliyinin ən qüdrətli, ərazi bütövlüyünün tam olduğu dövrünü yaşayır. Bəs 21 aprel tarixinə təyin edilmiş mitinqin məqsədi nədir? Milli Şuranı narahat edən nədir ki, onlar əhalinin sıx toplaşdığı ərazilərdə mitinq keçirmək arzusundadırlar.

Məqsəd əslində ortadadır. Azərbaycanın qələbəsinə kölgə salmaq istəyən, Qarabağ zəfərini açıq şəkildə həzm edə bilməyən qlobal mərkəzlərlə, Azərbaycandakı radikal müxalifəti birləşdirən ən önəmli cəhətlərdən biri məhz elə bu məqsədin özüdür: siyasi həzmsizlik. Güclənən dövlətçiliyimizi, şaxələn iqtisadiyyatımızı, güclənən mənəvi bağlarımızı və bütün bunların dövlətimizin inkişafına olan təsirlərini bir təhdid olaraq qəbul edirlər. Çünki, hər bir Azərbaycanlı canlı tarix olaraq yaşadığımız bugünlərdən fəxarət və qürur hissi ilə bəhs edərkən, narazılıq etmək, hətta bu amal uğrunda əhalinin kütləvi toplaşdığı məkanları seçərək "saxta izdiham" görüntüsü formalaşırmaq və bizə qarşı "yalançı dəlil" axtarışında olan siyasi mərkəzlərə bu minvalla yardım göstərmək dövlətçiliyimizin güclənməsinə töhfə verməyə çalışan kəsin davranışı ola bilməz".

Onun sözlərinə görə, Azərbaycan xalqı ağı-qaradan seçməyi bacaran, bütün dünyada isə özünün dəmir iradəsi ilə tanınan xalqdır: "Milli Şura hansı addımı atırsa atsın, Azərbaycanın, dövlətimizin, xalqımızın uğurlarına kölgə sala bilməz. Çünki, bütün proseslər xalqın gözü qarşısında baş verir. Xalqımız özü şahidlik etdi ki, Azərbaycan ordusu yenilməz mifinə özləri də inandırılmış erməni ordusunu necə darmadağın etdi, ərazi bütövlüyümüz necə tamamilə bərpa edildi. Xankəndidə ucaldılmış bayraq Azərbaycanı sevməyən hər kəsin qəlbinə sancılmış oxdan başqa bir şey deyildi. Amma, 21 apreldə təyin edilmiş mitinq özü bir daha göstərir ki, biz bu oxla daxildən də bir çoxunun gözləntilərini, maraqlarını alt-üst etmişik.

Azərbaycanın uğurlarına sevinməyən, Cənab Prezident İlham Əliyevin Qarabağ problemini kökündən həll etdiyini qəbullanmayan, planlarının alt-üst olduğunu anlayan bu radikal müxalifət nümayəndələri, əslində isə ruhlarını satmış, bioloji olaraq azərbaycanlı olan bu şəxslər rus sülhməramlılarının Azərbaycandan nə zamansa çıxacağına inanmırdılar. Belə olacağı təqdirdə hərəsi bir vəd verirdi və kinayə ilə yanaşırdılar bu məsələyə. Bu proses vaxtından əvvəl yekunlaşdı. Rus sülhməramlıları Azərbaycan torpaqlarını tərk edir. İndi isə müxtəlif ssenarilər quraraq buna başqa don geyindirməyə çalışırlar. Bir sözlə, bu insanlar 80-90-cı illərin xülyaları və yanaşmaları ilə yaşayırlar. Bunların düzəlməsi və Azərbaycan naminə faydalı bir iş görməsi heç zaman mümkün deyil. Bunlar yalnız qrant arxasında qaçırlar və öz havadarlarından, böyüklərindən daha çox vəsait və qrant əldə etmək üçün dəridən-qabıqdan çıxırlar. Hər gün də mitinq, etiraz etsələr, onların arxasınca gedən insanlar yoxdur. Bu insanlar, onlarla birlik olanlar belə çox təəssüflər olsun ki, təsir altına düşüblər. Utandıqlarından onlardan ayrıla bilmirlər. Bəziləri var ki, illərin müxtəlif zamanında bu radikallardan ayrıldılar, onlar da müxalifətdədirlər, əsl müxalif sima nümayiş etdirirlər, Azərbaycan, ümummilli maraqlar naminə birləşməyi bacarırlar. Onlar sözün əsl mənasında yaxşılığa doğru çatmağımız üçün müxalifətçilik edirlər. Milli maraqlar, dövlət maraqları üçün həmişə həmrəylik nümayiş etdirirlər. Təəssüf ki, bu qüvvələr bunu bacarmırlar, bacarmadılar və bacarmayacaqlar. Həmişə necə olublarsa, bundan sonra da bu cür qalacaqlar. Yalnız qrant üçün öz mövqelərini gücləndirmək üçün dövlət əleyhinə çıxacaqlar. Xalqı yanlışlara doğru yönləndirməyə çalışacaqlar".

**S. Ağazadə**

# "Qanunvericiliyin tələblərinə əməl etməyən sahibkar cərimələnə bilər"

***Azərbaycan Respublikasının "Reklam haqqında" Qanununun 4.7-ci maddəsinin, həmçinin "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanununun 7-ci maddəsinin müddəalarına görə reklamda dövlət dilinin tələblərinə riayət edilməlidir". Bu sözləri SİA-ya açıqlamasında ADRA-nın mətbuat katibi Hüseyn Azəri deyib.***




O bildirib ki, reklamvericinin tələbinə əsasən reklam qurğularında yerləşdirilən reklamın mətnində dövlət dili ilə yanaşı digər dillərdən də istifadə oluna bilər: "Bu halda xarici dildə olan mətn dövlət dilində olan mətndən sonra yerləşdirilməli, dövlət dilində olan mətnin tutduğu sahədən böyük olmamalıdır. Mətnində digər dillərdə ifadə olunan əmtəə nişanı və coğrafi göstərici müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qeydə alındığı formada göstərilməlidir. Həmçinin, qanunvericiliyə əsasən sahibkarların bazarda özlərini istehlakçıya öz adları ilə tanıtmaq hüququ vardır ki, xarici dildə ada malik olan (belə adla müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmış) ticarət və xidmət obyektləri həmin hüquqlarından istifadə edirlər. 2024-cü ilin birinci rübündə ADRA tərəfindən aparılmış monitorinqlər nəticəsində yayımı dayandırılan 1469 reklamın 20%-də dil normalarının (296) pozulması faktı aşkarlanmışdır.

Qanunvericiliyə əsasən sahibkarlar açıq məkanda reklam yerləşdirməzdən əvvəl Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyindən (ADRA) icazə almalıdırlar. Monitorinqlər göstərir ki, açıq məkanda icazə sənədləri olmadan yayımlanan reklamlar bəzi hallarda təhlükəsiz istismar üçün yararlı olmur, yerləşdiyi ərazinin estetik görünüşünə xələl gətirir, müşahidə kameraları üçün məhdudiyyətlər, yol hərəkəti iştirakçıları üçün isə təhlükə yaradır, eyni zamanda dil normalarının pozulmasına gətirib çıxarır. Açıq məkanda icazə sənədi olmadan yayımlanan reklamlar müəyyən edildikdə, əvvəlcə həmin reklam yayıcılarının maarifləndirilməsi təmin edilir, sahibkarlara qanunvericiliyin tələbləri izah olunur, mövcud problemlərin aradan qaldırılması tövsiyə edilir. Buna əməl edilmədikdə, hər bir pozuntu ayrıca təsvir olunmaqla müvafiq akt tərtib edilir və onların 5 gün ərzində aradan qaldırılması barədə reklam yayıcısına icrası məcburi olan yazılı göstəriş təqdim olunur. Yazılı göstərişdə müəyyən edilmiş tələblər vaxtında yerinə yetirilmədikdə və ya reklamın yayımı dərhal dayandırılmadıqda, həmçinin reklam yayıcısını müəyyən etmək mümkün olmadıqda, reklam yayımının dayandırılması üçün zəruri tədbirlər görülür. Bu zaman qanunvericiliyin tələblərinə əməl etməyən sahibkar cərimələnə bilər. İnzibati Xətalar Məcəlləsinə görə, fiziki şəxslər üçün 300 manatdan 500 manatadək, vəzifəli şəxslər üçün 1500 manatdan 2500 manatadək, hüquqi şəxslər üçün isə 5000 manatdan 10000 manatadək məbləğdə cərimə nəzərdə tutulur".

**Söylü**

# "Xəzər dənizinin duzsuzlaşdırılması kifayət qədər rəqabətədavamlı qiymətə olacaq"

***"Xəzər dənizinin suyu daha az duzlu olduğundan onun duzsuzlaşdırılması üçün çəkilən xərc də daha az olacaq. Dəniz suyunun duzsuzlaşdırılması təcrübəsi Körfəz ölkələri və İsraildə daha geniş yayıldığını vurğulamaq lazımdır. Ayrı-ayrı ölkələrin bu işə çəkdiyi xərcin məbləği fərqlidir.***



## EKOLOQ İZAH ETDİ

Həmin ölkələrdə bir kubmetr suyun təmizlənməsi üçün orta hesabla 1,5-2,5 dollar arasında xərc çəkilir. Xəzər dənizində isə bu xərcin daha az olacağı, kifayət qədər rəqabətədavamlı qiymətin formalaşacağı gözlənilir". Bu sözləri SİA-ya açıqlamasında ətraf mühit məsələləri üzrə ekspert Rövşən Abbasov deyib.

Xəzərə yaxın olan ərazilərin, xüsusilə Abşeron regionunun özünün su mənbələrinin olmadığını xatırladan ekspert dəniz suyunun duzsuzlaşdırılması layihəsinin bu bölgədə əlavə su mənbəyinin yaradılmasına xidmət edəcəyini bildirib. Onun fikrincə, alternativ su mənbəyi kimi nəzərdən keçirilən layihənin həyata keçirilməsi Azərbaycanın regionlarından, uzaq məsafələrdən Bakıya daha az həcmdə suyun nəqlinə gətirib çıxara bilər: "Bu isə həmin ərazilərin özünün su ilə təminatını yaxşılaşdırar. İndi Xaçmazdan Bakıya su gətirilir, amma Xaçmazdan su nəqli azalarsa, oranın da su təminatı yaxşılaşar. Abşeron yarımadasında bütün bağlar, parklar içməli su ilə suvarılır. Bu, həm Bakı sakinlərini çətin vəziyyətdə qoyur, həm də suyun gətirildiyi regionlarda əlavə su çatışmazlığı problemi yaradır. Bu baxımdan layihənin əhəmiyyəti çox böyükdür ".

R.Abbasov hesab edir ki, Xəzər dənizindən əldə edilmiş içməli su hesabına Abşeron yarımadasını içməli su ilə təmin etmək olar: "Ancaq ilk növbədə Bakının Xəzər rayonunun su ilə təmin olunması daha yaxşıdır: "Çünki bu ərazilər həm uzaqdadır, həm də onların su mənbələri yoxdur. Bu ərazilərə suyun verilməsi xeyli baha başa gəlir. Bunları nəzərə alaraq, ilkin olaraq, diqqətin həmin yaşayış məntəqələrinin üzərinə cəmlənməsi daha məqsədəuyğundur".

**Ləman Sərraf**

# Balaca rəssamlar Əzim Əzimzadənin ev muzeyində

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ekologiya Uşaq və gənclərin fiziki və mənəvi inkişafı istiqaməti çərçivəsində hazırlanıb.*



***Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi ilə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.***









Bu əlamətdar gün Azərbaycanda da geniş qeyd olunur. Hər il bu tarixdə qoruqlarda, tarixi məkanlarda abidələrin və tarixi yerlərin qorunmasının təbliği məqsədilə müxtəlif tədbirlər, sərgilər təşkil edilir. Belə tədbirlərdən biri də dahi Azərbaycan rəssamı, Azərbaycan karikatura sənətinin banisi, Azərbaycan SSR xalq artisti, Əmək Qəhrəmanı Əzim Əzimzadənin ev muzeyində təşkil olunmuşdu.

Əzim Əzimzadənin ev-muzeyi 1968-ci ildə Bakıda yaradılıb. Muzeyin fondunda rəssamın 2000 eksponatı qorunub saxlanılır. Ə.Əzimzadə ev-muzeyinin ekspozisiyası 6 otaqdan ibarətdir. Burada rəssamın 4 üslubda çəkdiyi əsərlər karikaturalar, portretlər, ornamentlər və mənzərələr nümayiş etdirilir.

Muzeyin direktoru İradə Əzimzadə 18 aprel - Beynəlxalq



Abidələr və Tarixi Yerlər günündə muzeyin qapılarını həm ziyarətçilər, həm də balaca rəssamlar üçün açdı. "M.A. ART" Rəssamlıq Studiyasının rəhbəri Münəvvər Allahquliyevanın şagirdləri öz əl işləri ilə muzeyin və ziyarətçilərin qonağı oldu. Münəvvər müəllimənin tələbələri təbiət və tarixi abidələr mövzusunda bu gün üçün xüsusi olaraq işlədikləri əsərlərini qürurla nümayiş etdirdilər.

Muzeyin direktoru İradə Əzimzadə mədəni irsin qorunması, tarixi abidələrin mühavizəsi və gələcək nəsillərə ötürülməsi barədə həm ziyarətçilərlə, həm də balaca rəssamlarla söhbət etdi. O bildirdi ki, kiçik rəssamlarla ünsiyyətdən çox məmnundur və dahi rəssamın ev-muzeyinin qapıları həmişə balaca rəssamların üzünə açıqdır:

"Əgər bu gün bu balaca balalar, yolunu getmək istədikləri ustad rəssamın eksponatlarının olduğu bir muzeydə öz əl işlərini nümayiş etdirirlərsə, bu, onların sənət yolunda böyük stimul olacaq. Mən bayaqdan onların əl işlərinə baxıram, inanın o qədər bəyəndim ki çəkdikləri şəkilləri. Onlar necə gözəl düşünürlərsə, o qədər də gözəl rəsm çəkiblər, daxili aləmlərini də bir o qədər gözəl təsvir ediblər. Rəsm çəkmək fitri istedaddır. Əgər Münəvvər müəllimə onların daxilindəki bu işığı görüb fitri istedadlarını kağıza köçürmələrinə vəsilə olubsa bu çox gözəl bir işdir, o təqdirəlayiq bir iş görür. O fəxr etməlidir ki, belə gözəl tələbələr yetişdirib. Həmçinin, bu gün bu balaca rəssamları bizə təqdim etdiyi üçün Münəvvər müəlliməyə təşəkkür edirəm".

"M.A. ART" Rəssamlıq Studiyasının rəhbəri Münəvvər Allahquliyeva isə muzeyin rəhbərinə sərgi üçün şərait yaratdığına görə təşəkkür etdi: "Biz artıq bir neçə dəfədir ki, balaca rəssamlarımızın əl işlərini bu muzeydə sərgiyə çıxarırıq. Həm mən, həm də tələbələrim və onların valideynləri hər ziyarətimizdə bizə hər cür şərait yaradan dəyərli İradə xanıma, muzey əməkdaşlarına minnətdarıq. Bu muzey bizim üçün doğma məkana çevrilib, balaca rəssamlarım sərgiyə hər dəfə xüsusi həvəslə hazırlaşırlar. Onlarda bu həvəsi yarada bildiyimiz üçün çox məmnunuq".



Qeyd edək ki, sərgidə iştirak edən balaca rəssamların ən böyüyünün 13, ən kiçiyinin 4 yaşı vardı. Yaşlarına rəğmən çox peşəkar formada əsərlər işləyib, öz duyğularını, düşüncələrini ustalıqla kağıza köçürmüşdülər. Yazın gəlişi ilə canlanan təbiəti, meşələri, gölləri, çayları, həmçinin misilsiz tarixi abidələrimizdən olan Atəşgahı, Ramana Qalasını, Gövhər Ağa Məscidini, Möminə Xatun Türbəsini, Şirvanşahlar Sarayını, Qız Qalasını kağıza həkk edən balacalar öz rəsmləri barədə ziyarətçilərə həvəslə məlumat verdilər. Onların al-əlvan rəsmlərinə ziyarətçi marağı böyük idi. Diqqəti çəkən məqamlardan biri də o idi ki, balacalar işğaldan azad olunmuş ərazilərimizdə olan tarixi abidələrimizə də diqqətlə yanaşmışdılar.

Sonda balaca rəssamlar və onların valideynləri həm uşaqların müəlliminə, həm də muzey rəhbərliyinə və ziyarətçilərə sərgiyə yaradılan şərait və göstərilən marağa görə təşəkkür etdilər. Sonra sərgi iştirakçıları ilə birgə xatirə fotosu çəkildi.

***Lalə Mehralı***



REPORTAJ+FOTOLAR

SƏS
20 aprel
2024-cü il

# Uşaqlara hansı yaşda telefona icazə verilə bilər?



***"Uşaqlar 3 yaşına qədər telefon, planşet, texnoloji vasitələrdən uzaq olmalıdır". Bu sözləri SİA-ya açıqlamasında klinik psixoloq Nuriyyə Quliyeva deyib. Psixoloq bildirib ki, bu həm ona görədir ki, uzun müddət telefon ekranına məruz qalmaq uşağın ünsiyyətini məhdudlaşdırır, nitqini ləngidir: "Həmçinin diqqətini zəiflədir, ümumi inkişafına zərər verə bilir.***

Ona görə tövsiyə etmirik. Təbii ki, aqressiv davranışlar yarada, bir çox problemlərə gətirib çıxara bilər. Ona görə də 3 yaşına qədər uşaqlara telefon, digər texnoloji vasitələri tövsiyə etmirik.

3 yaşından sonra isə müəyyən müddətə nəzarət etməklə uşağa telefon verilə bilər, amma məzmununa xüsusi diqqət etmək lazımdır. 3 yaşından yuxarı uşaqlarda inkişafını dəstəkləyən hər hansı tapşırıqlar,

## PSİXOLOQ İZAH ETDİ

cizgi filmlərinin yaşına uyğun olanlarının verilməsi mümkündür. Yenə də qorxu, şiddət, hər hansı fəsad törədə biləcək aqressiv davranışlar nümayiş etdirəcək səhnələrə, oyunlara məruz qalmamalıdırlar.

### Bəs müddəti necə seçməliyik?

Burada mütləq yaş nəzərə alınmalıdır. Uşağın yaşını 10 dəqiqəyə vurmaq lazımdır. Əgər 3 yaşı varsa, 10 dəqiqəyə vuranda bu, 30 dəqiqə deməkdir. Amma bu vaxt gün ərzində ümumi olaraq telefon və planşetin hamısına birlikdə 30 dəqiqə deməkdir. Yəni 30 dəqiqə telefon, 30 dəqiqə planşet, 30 dəqiqə televizor demək deyil. Ümumi bu texnoloji vasitələrlə 30 dəqiqə vaxt keçirmək imkanı var. Amma diqqət yetirməliyik ki, mövzu, məzmun uşağın yaşına uyğun olsun. İkincisi də, ardıcıl olmayaraq, gün ərzində 5, 6, 7 dəqiqə kimi cəmi 30 dəqiqə etmək lazımdır. Uşağın 5 yaşı varsa, gün ərzində 50 dəqiqə bu texnoloji vasitələrlə vaxt keçirə bilər".

***S. Ağazadə***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Almaniyada skuter sürmək qadağan edildi

***Parisdən sonra başqa bir şəhər "yox" dedi, bu dəfə Almaniya skuterləri qadağan etdi. SİA xarici mətbuata istinadən xəbər verir ki, keçən il Paris şəhəri skuterlərdən istifadəni tamamilə qadağan etmişdi. Gələn həftə sonundan etibarən Almaniyanın Gelzenkirxen şəhərinin küçə və səkilərində skuterdən istifadəyə icazə verilməyəcək.***



Gelzenkirxen bələdiyyəsi skuterlərin şənbə gününə qədər yığılmasını istəyib. İcarəyə skuter təklif edən "Bolt" və "Tier" adlı şirkətlər qadağaya qarşı məhkəmə iddiası qaldırıb. Lakin Gelzenkirxen İnzibati Məhkəməsi hələlik bələdiyyənin xeyrinə qərar çıxarıb. Məhkəmə qadağanın qanuni olduğuna və şəhərdə cəmi 350 icarəyə götürülmüş skuterin ən geci şənbə gününə qədər yığışdırılacağına qərar verib. Bununla belə, skuterlərin şəxsi istifadəsi davam edəcək.

***Söylü***

# "Barselona" doğma arenaya bu tarixdə qayıdacaq

***İspaniyanın "Barselona" futbol klubunun "Kamp Nou" stadionuna qayıdacağı tarix bəlli oldu. SİA xəbər verir ki, Kataloniya klubu dekabrın 15-dən etibarən doğma arenasından istifadə edə biləcək. Rəhbərlik klubun 125 illiyini qeyd edəcəyi 29 noyabr tarixində açılış tədbiri keçirməyi planlaşdırırdı. Lakin sonradan tələsməmək qərarına gəlib. Komandanın ilk matçlarında tribunalara məhdud sayda azarkeş buraxılacaq. Belə ki, qarşılaşmalara maksimum 60 min tamaşaçı cəlb olunacaq.***



Xatırladaq ki, "Kamp Nou" stadionu 2023-cü ildən yenidənqurma üçün bağlanıb. Həmin vaxtdan bəri "Barselona" ev oyunlarını şəhərin Olimpiya Stadionunda keçirir.



# Sumqayıtda ata-anasını öldürən oğul yaxalanıb

Aprelin 19-də saat 03 radələrində Sumqayıt şəhəri ərazisində 1962-ci il təvəllüdlü Məmmədov Hakim və onun həyat yoldaşı 1965-ci il təvəllüdlü Məmmədova Zərifənin yaşadığı evdə kəsici alətlə qətlə yetirilməsi barədə polisə məlumat daxil olub.

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, cinayət əməlini törətməkdə şübhəli bilinən onların oğlu, 2000-ci təvəllüdlü Məmmədov Fikrət Hakim oğlu polis əməkdaşları tərəfindən saxlanılıb. Araşdırma aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**